

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

Sayı: 34 (24.416)

31 avqust 2024-cü il, şənbə

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Daşkənd görüşü:



## Azərbaycan-Özbəkistan münasibətlərinin yeni kitabı

Azərbaycanın Mərkəzi Asiya dövlətləri ilə dərin köklərə malik tarixi mədəni əlaqələri, etnik birliyi son illərdə siyasi müstəvidə də özünü ən bariz şəkildə göstərir, müxtəlif beynəlxalq tədbirlərdə ölkələr vahid geosiyasi məkan kimi çıxış edirlər. Bu xüsusda dillərin yaxınlığı, xalqlar arasında qarşılıqlı hörmətin mövcudluğu Özbəkistanla münasibətlərimizin daha da sıxlığını şərtləndirir. Azərbaycan ilə Özbəkistan arasında milli-mənəvi bağların möhkəmliyini Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, TÜRKPA, Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türk Biznes Şurası və digər platformalar da təsdiqləyir. Son iki ildə dövlət başçısı cənab İlham Əliyevin beş, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin isə il yarımda dörd dəfə qarşılıqlı səfərləri siyasi baxışların kəsişməsindən, iqtisadi əməkdaşlığın güclü perspektivindən də xəbər verir. Azərbaycan liderinin avqustun 22-də dost ölkəyə növbəti dövlət səfəri bu baxımdan daha böyük əhəmiyyətə malik addımların atılması ilə nəticələnərək yaxın gələcəkdə regionun geosiyasi mənzərəsinin daha yaxşı yöndə dəyişəcəyinə əminlik yaratdı...

Prezidentin tarixi Özbəkistan səfəri çərçivəsində keçirilən Daşkənd görüşləri çoxtərəfli münasibətlərimizin bütün spektrinin ətraflı müzakirəsi, əsas istiqamətlər üzrə məruzələrin dinlənilməsi, böyük iqtisadi perspektivlər vəd edən sənədlərin imzalanması ilə yadda qaldı. Bu səfər, hər şeydən əvvəl, böyük imkanlarımızın olduğu ticarət, sənaye kooperasiyası, energetika, nəqliyyat, kənd təsərrüfatı, təhlükəsizlik, mədəniyyət və digər sahələrdə əməkdaşlıqlarımıza daha geniş qapılar açdı fikrini qətiyyətlə deyə bilərik. Prezidentlər siyasi dialoqu möhkəmləndirmək, çoxtərəfli platformalarda qarşılıqlı dəstək göstərmək, parlamentlər, hökumətlər, sahələr, nazirliklər səviyyəsində və ən başlıcası həm də regionlararası fəal təmasları davam etdirməklə bağlı razılığa gəldilər. Ən önəmlisi isə Azərbaycanın ortaya qoyduğu siyasi iradə sayəsində Türkiyə və Rusiyadan sonra növbəti ölkə ilə də siyasi müttəfiqlik körpüləri quruldu. Lakin əvvəlki ikisindən fərqli olaraq Özbəkistanla bu müttəfiqliyə bəyanatla deyil, daha da irəli gedilərək müqavilə ilə imza atıldı.

Səhifə ⇨ 2

## Uğur hekayələri



Səhifə ⇨ 7

## Yeni dövrdə turizmin inkişafı üçün qarşıya ciddi vəzifələr qoyulub



Müasir cəmiyyət həyatında yerinə yetirdiyi funksiyalarla turizm regional inkişafın vacib mexanizmi və sosial-mədəni həyatın mühüm tərkib hissələrindən biridir. Rekreasiya və yaradıcı əmək fəaliyyəti bir-biri ilə sıx bağlı olduğundan turizmin inkişafından dövlətin gözlədiyi nəticələr arasında asudə vaxtın səmərəli keçirilməsi, insanların fiziki və mənəvi sağlamlığı və turizm destinasiyası timsalında ölkənin beynəlxalq aləmdə tanıdılması kimi mühüm hədəflər vardır.

Səhifə ⇨ 11

## Türkiyəli və azərbaycanlı şəhid ailə üzvləri Ordubadda olub



Səhifə ⇨ 11

## Naxçıvanda 500-700 intervalında bal toplamış məzunlar mükafatlandırılıb



Səhifə ⇨ 3

## Naxçıvanda doğum günü avqust ayında olan şəhidlərin xatirəsi anılıb

*Avqustun 29-da "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə avqust ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.*

Səhifə ⇨ 6

## Dövlət Proqramının icrası uğurla həyata keçirilir





"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"çərçivəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilir.

"Şərq qapısı" xəbər verir ki, Dövlət Proqramına uyğun olaraq Naxçıvan Geoloji Geofiziki və Hidroloji Ekspedisiya Mərkəzinin maddi-texniki bazası gücləndirilib. Belə ki, Naxçıvan Geoloji Geofiziki və Hidroloji Ekspedisiya Mərkəzi üçün nəqliyyat vasitələri, kompüter, UPS, təhlükəsizlik sistemləri, planşet, plotter, printer, portativ GPS, yüksək dəqiqlikli topoqrafik işlər üçün geoloji GPS, geoloji GPS CHTN AV, elektron su səviyyəsini ölçən cihaz, buruqqazma qurğusu, HQ qazma boruları, plasmast boru qazma baltası, qazma ucluğu HQ, karotier PQ və karotier HQ avadanlıqları alınıb.

Həmin avadanlıqların alınması mərkəzin maddi-texniki bazasını gücləndirəcəkdir. Eyni zamanda qazma qurğularının operativ daşınmasına, radiasiyanın öyrənilməsinə, buruq qazma işlərində yüksək faizli kern çıxışının təmin edilməsinə, mineral bulaqların, xəndəklərin, quyu ağızlarının dəqiq koordinatlarının vurulmasına kömək edəcəkdir. Həmçinin avadanlıqların alınması ilə geoloji xəritələrin, cizgi materiallarının çap olunması, layihələrin, hesabatların və cari sənədlərin tərtibatında işlərin sürətlə və keyfiyyətlə yerinə yetirilməsinə nail olunacaqdır.

## Dünyanın gözü Azərbaycanda



Regional münaqişələrin böyümə təhlükəsinin artdığı və beynəlxalq siyasətdə münasibətlərin kəskinləşdiyi bir dövrdə dünyada təhlükəsizlik arxitekturasının yenidən dizayn olunması və sağlam iqtisadi əlaqələrin qurulması kimi məsələlər hazırda qarşıda duran ən ciddi problemlərdəndir. Hər gün silahlı toqquşmalardan və çətin həyat şərtlərindən məhv olan minlərlə insanı deyil, yalnız öz ölkələrinin maraqlarını güdən iri dövlətlərin siyasətçilərinin böyük oyunlarının nəticəsi olan qlobal böhran dərinləşdikcə sağlam düşüncəyə, humanitar və mədəni əlaqələrin dərinləşməsinə, dayanıqlı iqtisadi və ekoloji inkişafa aparan addımların da dəyəri hər keçən gün artmaqdadır.

Səhifə ⇨ 8



# Daşkənd görüşü:

## Azərbaycan-Özbəkistan münasibətlərinin yeni kitabı



### Prezident İlham ƏLİYEV:

*“Biz bu gün Daşkənddə, həqiqətən də, münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Zənnimcə, əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək.”*

*(əvvəli 1-ci səhifədə)*

Dünya praktikasına baxsaq görərik ki, bəzən dövlətlər arasında müttəfiqlik səviyyəsinə çatmaq üçün 10-20 illik tərəfdaşlıq tələb olunur. Amma Azərbaycan Prezidentinin apardığı uğurlu diplomatiyanın təqdiredici reallığıdır ki, cəmi 2 il əvvəl 2022-ci ildə Özbəkistana dövlət səfəri və sonrakı dinamika strateji müttəfiqliyə gətirib çıxardı. Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev də bu mütərəqqi addımın atılmasında başlıca amil kimi, ölkələri, xalqları bir araya gətirmək üçün siyasi iradənin mövcudluğunu diqqətə çəkdi. Azərbaycan lideri isə müttəfiqlik münasibətləri haqqında müqavilənin iki ölkənin imzalaya biləcəyi ən yüksək beynəlxalq sənəd olduğunu vurğuladı. Sitat: ***“Bu gün imzalanan sənədlərin, ilk növbədə, müttəfiqlik münasibətlərinə dair Müqavilənin əhəmiyyətini bir daha qeyd etmək istərdim. Bu, Azərbaycanda həmin qəbildən olan üçüncü sənəddir. İndiyə qədər – bizə yaxın olan iki ölkə ilə 2021-ci və 2022-ci illərdə müttəfiqlik münasibətlərinə və ya müttəfiqlik qarşılıqlı fəaliyyətinə dair bəyannamələr imzalamışıq. İndiki halda söhbət müqavilədən gedir, yəni dünyada bu sənəddən daha yüksəyi yoxdur. Həm də bu, çox qısa müddət ərzində bizim birgə fəaliyyətimizin nəticəsidir”.***

Böyük tarixi-siyasi əhəmiyyəti ilə yanaşı, ağır iqtisadi çəkisi ilə seçilən, yeni əməkdaşlıq perspektivlərinin vədini verən Daşkənd görüşünün bu tərəflərinə toxunmadan öncə Özbəkistanın Azərbaycan üçün nə qədər önəmli rola malik olduğuna da diqqəti çəkmək istərdik. Qardaş ölkə Türkiyəylə əlaqələrimizdə olduğu kimi, bu qədim türk kökənli dövlətlə də münasibətlərimizdə “Dost dar gündə tanınar” fikrini əmin şəkildə irəli sürə bilərik. Belə ki, Özbəkistanın 30 illik işğal zamanı Ermənistanla diplomatik münasibətləri qurmaması, bu illər ərzində Ermənistanda səfirliyini açmaması, həmçinin Ermənistanın da Daşkənddə səfirlik açmasına icazə verməməsi Azərbaycana olan dost sevgisinin, qardaş hörmətinin əlaməti kimi dəyərlidir, qiymətlidir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) qoşunlarının bölgəyə yerləşdirilməsi ilə bağlı çağırış edəndə ilk etiraz edən dövlətlərdən biri olan Özbəkistan müharibədən sonra Azərbaycanın azad olunan torpaqlarda apardığı quruculuq strategiyasına da töhfələr verir. Ötən il avqustun 23-də açılışı olan, Şavkat Mirziyoyevin təşəbbüsü ilə Füzulidə Mirzə Uluqbəy adına 960 şagird yerlik orta məktəbin tikilməsi, həmçinin Özbəkistanın sərmayəsi ilə yaxın gələcəkdə Xankəndidə minə qədər yeni iş yerinin açılmasını vəd edən tikiş fabrikinin inşasının nəzərdə tutulması da məhz qardaş dəstəyinin göstəriciləridir...

Gələn il diplomatik münasibətlərinin 30 illiyi qeyd ediləcək Azərbaycan və Özbəkistan arasında mövcud iqtisadi əməkdaşlıq əlaqələri barədə onu xüsusi vurğulamaq olar ki, son beş ildə iki ölkə arasında ticarət dövriyyəsi üç dəfə artıb. Belə ki, dövriyyənin həcmi 2019-cu ildə 81,9 milyon dollar olmuşdusa da, 2022-ci ilə qədər 183,3 milyon dollara çataraq, təxminən, 124 faiz artım göstərib. 2023-cü ildə mövcud sahədə dövriyyə 232 milyon dollar təşkil edib. Cari ilin yanvar-iyul aylarında isə həmin göstərici 118 milyon dolları ötüb. Yaxın gələcəkdə hər iki dövlət qarşılıqlı ticarəti 1 milyard dollara çatdırmağı hədəfləyib. Əməkdaşlığın inkişafında əsas faktor kimi, sənaye, turizm, nəqliyyat, tikinti, kənd təsərrüfatı, xidmət sahələri üzrə əlaqələr çıxış edir ki, bu və digər sahələrə dair Özbəkistanda Azərbaycan kapitallı 236 müəssisə, o cümlədən 62 müştərək müəssisə, respublikamızda isə dost ölkənin 70 şirkəti fəaliyyət göstərir. Bu baxımdan avqustun 23-də Daşkənddə hər iki ölkənin aid təşkilatları arasında imzalanan elm, təhsil, mədəniyyət, turizm, ədliyyə, daxili işlər və digər sahələri əhatə edən saziş və protokollar arasında ən mühümlərindən biri “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Özbəkistan Respublikasının İnvestisiyalar, Sənaye və Ticarət Nazirliyi arasında ticarət-iqtisadi və investisiya əməkdaşlığının daha da genişləndirilməsi üzrə 2024-2025-ci illər üçün Praktiki Fəaliyyət Planı”dır ki, (“Yol xəritəsi”) bu sayədə həmin şirkətlər üçün sözügedən sahələr üzrə yeni irimiqyaslı layihələrin icrasına geniş imkanlar açılacaq.

Prezidentlərin hər iki ölkənin işgüzar dairələrinin nümayəndələri ilə görüşü zamanı bildirildi ki, ümumi dəyəri 520 milyon dollar olan 7 layihə həyata keçirilməyə hazırdır. Həmin layihələr arasında Yevlax rayonunda tekstil klasterinin, Füzuli rayonunda Özbəkistan-Azərbaycan dostluq bağının yaradılması ilə yanaşı, Xankəndi şəhərində toxuculuq fabrikinin tikintisinin də yer alması ölkəmiz üçün Böyük Qayıdış proqramının icrası baxımından xüsusi əhəmiyyət daşıyır. Daşkənd görüşündə mətbuata bəyanatı zamanı



ölkə başçısı da bu məqama toxunaraq Özbəkistanın atdığı addımı qardaşlıq və dostluq rəmzi kimi dəyərləndirdi: ***“Bizim bu gün müzakirə etdiyimiz məsələlər arasında yalnız bir layihəni ayrıca qeyd etmək istərdim, çünki o, əlamətdardır – bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılmasıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə – istər işğal, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra da özbək xalqının qardaş dəstəyini hiss etmişik”.***

Ümumilikdə, Prezident cənab İlham Əliyevin Özbəkistan səfəri, Daşkənddə keçirilən görüşlər və imzalanan sənədlərdən gəlinən nəticə budur ki, bu sayədə indiyədək reallaşdırılan layihələrin nə dərəcədə önəmli olduğu isbat edilməklə yeni layihələrin icrası, qarşıdan gələn dövr ərzində iqtisadi, ticarət və sərmayə əlaqələrinin daha da güclənməsi üçün fundamental baza yaradıldı. Ən əsas rəğbətolunası amil isə odur ki, bir sıra dövlətlərin 10-15 ilə əldə etdiyi nailiyyətə Azərbaycan və Özbəkistan əsl siyasi iradə, qətiyyətli mövqe göstərməklə cəmi 2-3 il ərzində çataraq müttəfiq respublikalara çevrildilər. Ölkə Prezidenti cənab İlham Əliyevin Daşkənd görüşünün nəticələrinə dair mətbuata bəyan etdiyi kimi: ***“Biz bu gün Daşkənddə, həqiqətən də, münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Zənnimcə, əminəm ki, üzərimizdə dolaşan və bununla bağlı bizə xeyir-dua verən əcdadlarımızın ruhları şad olacaq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldular. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə bizim münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək”.***

**Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 31 oktyabr tarixli 383-06/S nömrəli Sərəncamının 1-ci hissəsinə uyğun olaraq muxtar respublikada avtomobil nəqliyyatı sahəsində idarəetmə, tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üzrə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sərnişin və yük daşımalarının beynəlxalq tələblərə və təcrübəyə uyğun təşkil edilməsi və rəqabətədavamlı avtomobil nəqliyyatı sahəsinin formalaşdırılması məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində "Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi" publik hüquqi şəxs (bundan sonra – Agentlik) yaradılsın.

2. "Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Agentliyin nizamnamə fondu 6 432 000 (altı milyon dörd yüz otuz iki min) manatdır və "Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsin (bundan sonra – Xidmət) əsas vəsaitlərinin qalıq dəyəri hesabına formalaşdırılır.

4. Agentliyin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

4.1.1. Agentliyin nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Agentliyin idarəetmə orqanlarının yaradılması;

4.1.3. Agentliyin yenidən təşkili və ləğvi;

4.2. Nazirliyə:

4.2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.2. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla təsdiqi;

4.2.3. bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.3. Agentliyin nəzarət funksiyasını yerinə yetirən əməkdaşlarının xidməti geyim formasının, fərqləndirmə nişanlarının təsvirini və onların daşınması qaydasını təsdiq etsin;

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Nazirlik:

6.1. Agentliyin dövlət qeydiyyatına alınması üçün 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

6.2. Agentliyin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

6.3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Xidmətin balansında olan əmlakın Agentliyin balansına verilməsini təmin etsin;

6.4. Agentliyin 2024-cü ilin növbəti dövrü üçün maliyyələşdirilməsini "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tətbiqi barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 28 dekabr tarixli 223-VI FR nömrəli Fərmanının 1.10.1.2-ci yarımbəndində nəzərdə tutulan vəsait hesabına təmin etsin;

6.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 avqust 2024-cü il*

## Naxçıvanda 500-700 intervalında bal toplamış məzunlar mükafatlandırılıb




*Avqustun 30-da Naxçıvan Dövlət Milli Dram Teatrında ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış məzunların mükafatlandırılması tədbiri keçirilib.*

Tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Naxçıvan təhsilinin yeni uğurunu qeyd etməkdən məmnunluğunu ifadə edib, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin tədbir iştirakçılarına salamlarını, uğur qazanmış məzunlara, onların müəllimlərinə və valideynlərinə səmimi təbriklərini çatdırıb.

Baş nazir bildirib ki, 2023-2024-cü tədris ilində Naxçıvan Muxtar Respublikasında 4569 şagird ümumi orta təhsil səviyyəsini, 3500 şagird tam orta təhsil səviyyəsini başa vurub. Təhsili xüsusi nailiyyətlərlə başa vuran 8 şagird "Qızıl", 1 şagird "Gümüş" nişana, 256 şagird isə fərqlənmə attestatına layiq görülüb. Tam orta təhsil səviyyəsi üzrə fərqlənmə attestatına layiq görülən şagird sayı ötən illə müqayisədə 3 dəfə çox olub. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində 327 məzun 500-700, o cümlədən 222 məzun 500-600, 78 məzun 600-650, 27 məzun isə 650-700 intervalında bal toplayıb. Ötən illə müqayisədə yüksək nəticə göstərən məzunların sayı 67 faiz artıb. Bu da muxtar respublikada son 5 ildə əldə olunan ən yüksək göstəricidir.



Ceyhun Cəlilov diqqətə çatdırıb ki, ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsinin ixtisas seçiminin birinci mərhələsində muxtar respublika üzrə, ümumilikdə, 1835 məzun ali təhsil müəssisələrinə qəbul olub. Onların 946-sı ixtisas seçimi zamanı Naxçıvan Dövlət Universiteti, 163-ü Naxçıvan Müəllimlər İnstitutu, 32-si isə Qarabağ Univesitetini seçib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Gültəkin Rüstəmova ötən tədris ilində əldə olunan ümumi nəticələr barədə məlumat verib. Bildirib ki, 2023-2024-cü tədris ilində 8 şagird buraxılış imtahanlarında 300 bal toplamaqla ən yüksək nəticəni göstərib. Ümumilikdə, 292 şagirdin 250-300 bal intervalında nəticə göstərməsi muxtar respublika şagirdlərinin yüksək hazırlıq səviyyəsini təsdiqləyir. Ölkə üzrə muxtar respublikanın ümumtəhsil məktəbləri ən yüksək göstəricilər baxımından ikinci yerdə qərarlaşıb. 600-700 bal intervalında nəticə əldə edən məzun sayında da əhəmiyyətli dərəcədə artım olub. 2022-2023-cü tədris ilində bu nəticəni göstərən məzunların sayı 42 olmuşdursa, 2023-2024-cü tədris ilində isə bu say 104 nəfərə yüksəlib. Məhz bu göstəricilər ötən tədris ili ilə müqayisədə 2,5 dəfə çoxdur.





Valideynlər adından çıxış edən Ordubad rayonunun Dırnıs kənd tam orta məktəbinin direktoru Taleh Qasımov öz övladı da daxil olmaqla rəhbərlik etdiyi məktəbin 8 məzununun hər birinin tələbə adını qazandığını, həmin məzunlardan birinin artıq Qarabağ Universitetinin tələbəsi olduğunu bildirib, bu uğurları ölkə başçımızın rəhbərliyi ilə yaradılan müasir təhsil şəraiti və gələcəyimiz olan gənclərə göstərilən qayğının nəticəsi kimi dəyərləndirib.

Ali məktəblərə keçirilən qəbul imtahanlarında 691.9 bal toplayaraq muxtar respublika birincisi olan Kənan İsmayıllı əldə etdiyi uğurun təməlində hədəf və onun uğrunda çox çalışmaq, eyni zamanda dövlətimizin yaratdığı müasir tədris şəraiti, valideynlərinin və müəllimlərimin əməyi və dəstəyinin dayandığını bildirib. Ümummilli Liderimizin ***"Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir"*** fikirlərini dilə gətirən muxtar respublika birincisi yüksək nəticə göstərən məzunlar adından dahi Heydər Əliyev ideyalarının davamçıları olacaqlarına, Azərbaycan gəncliyinin adını daim zirvələrdə tutacaqlarına və ölkəmizin çiçəklənməsinə öz töhfələrini verəcəklərinə söz verib.

Sonra 500-700 intervalında nəticə əldə etmiş məzunlar mükafatlandırılıb.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov mükafatları təqdim edib, tədbirdə iştirak edən məzunlarla xatirə fotosu çəkdirib.



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 29 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyinin NİZAMNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində olan Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi (bundan sonra – Agentlik) Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı sahəsində (bundan sonra – müvafiq sahə) tənzimləməni, avtomobil nəqliyyatı ilə daşımalara və digər avtomobil nəqliyyatı xidmətlərinə ehtiyacın təmin edilməsini, muxtar respublikadaxili sərnişin və yük daşımalarına dair qayda və tələblərə, habelə bu sahədə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına riayət edilməsinə nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin qərarlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı və "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları, loqotipi (emblemi) və blankları vardır.

1.6. Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Agentlik məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. Agentliyin nəzarət funksiyalarını yerinə yetirən əməkdaşları Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən xidməti geyim forması və fərqləndirmə nişanları daşımaq hüququna malikdirlər.

1.8. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.8.1. tam halda – Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi, qısaldılmış halda – NANA;

1.8.2. ingilis dilində tam halda – Nakhchivan Automobile Transport Agency, qısaldılmış halda – NATA.

1.9. Agentlik Naxçıvan şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahə üzrə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək və bu siyasətin həyata keçirilməsini təmin etmək;

2.1.2. müvafiq sahədə tənzimləməni və qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarəti həyata keçirmək;

2.1.3. avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarının təşkilini və bu sahədə dövlət sifarişinin formalaşdırılmasını təmin etmək;

2.1.4. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını tənzimləyən icazə sisteminin muxtar respublikada tətbiqini təmin etmək və bu sahədə nəzarəti həyata keçirmək;

2.1.5. yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək və aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək;

2.1.6. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.7. bu Nizamnamə ilə müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

**3. Agentliyin vəzifələri və hüquqları**

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahədə normativ hüquqi aktların, inkişaf konsepsiyalarının, strategiyaların və məqsədli proqramların hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.2. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görmək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.3. dövlət orqanlarının (qurumlarının), yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımaları üzrə fəaliyyətini əlaqələndirmək;

3.1.4. aidiyyəti dövlət orqanı (qurumu) ilə birlikdə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən vergiödəyicilərinə məxsus avtonəqliyyat vasitələrinə fərqləndirmə nişanlarının tətbiqi ilə əlaqədar müvafiq normativ hüquqi aktların tələblərinə riayət olunmasına nəzarət etmək;

3.1.5. müvafiq sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə tənzimlənən və Agentliyin səlahiyyətinə aid olan məsələlər üzrə Azərbaycan Respublikasının götürdüyü öhdəliklərin muxtar respublika ərazisində yerinə yetirilməsini təmin etmək;

3.1.6. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq fəaliyyət növlərinə icazə, onların dublikatlarını və əlavələrini vermək, həmin icazələri yenidən rəsmiləşdirmək, dayandırmaq, bərpa və ya ləğv etmək, habelə icazə şərtlərinə riayət olunmasına nəzarəti həyata keçirmək;

3.1.7. Naxçıvan Muxtar Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazə sisteminin tətbiqini və bu sahədə nəzarəti həyata keçirmək;

3.1.8. Naxçıvan Muxtar Respublikasının ərazisində (gömrük sərhəd buraxılış məntəqələri istisna olmaqla) xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri ilə həyata keçirilən beynəlxalq avtomobil daşımalarına nəzarət etmək;

3.1.9. avtomobil nəqliyyatı ilə müntəzəm və qeyri-müntəzəm sərnişindaşıma xidmətlərinin təşkil edilməsi, habelə səmərəliliyinin və keyfiyyətinin artırılması üçün tədbirlər görmək;

3.1.10. avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımaları üzrə marşrutu Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi ilə razılaşdırmaqla marşrutların sxemini, həmin marşrutlarda istifadə olunacaq avtonəqliyyat vasitələrinin hərəkət cədvəlini, növünü və onlara dair tələbləri müəyyən etmək;

3.1.11. dövlət sifarişi əsasında avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə sərnişin daşımalarının yerinə yetirilməsinə daşıyıcıları müsabiqə qaydasında cəlb etmək, müsabiqənin qəlibləri ilə müvafiq marşrut üzrə sərnişin daşınması (sərnişin daşınmasının təşkili) haqqında müqavilə bağlamaq və müqavilə şərtlərinə əməl olunmasına nəzarət etmək;

3.1.12. avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq daşıma marşrutlarının pasportunu hazırlamaq və onları daşıyıcılara təqdim etmək;

3.1.13. müntəzəm sərnişindaşıma xidmətləri yerinə yetirən avtobusların fəaliyyətini tənzimləmək məqsədilə mərkəzləşdirilmiş dispetçer xidməti yaratmaq və onun fəaliyyətini təşkil etmək;

3.1.14. müntəzəm sərnişin daşımalarında gediş haqqının nağdsız ödənilməsini təmin edən ödəniş sisteminin yaradılması və idarə olunması ilə bağlı tədbirlər görmək;

3.1.15. rəqəmsal taxoqraf kartları üzrə milli sistemin muxtar respublika ərazisində fəaliyyətinin təmin olunmasında, habelə tənzimlənməsində və idarə olunmasında iştirak etmək;

3.1.16. beynəlxalq və ölkədaxili (şəhərlərarası və rayonlararası) sərnişin və yük daşımalarını həyata keçirən daşıyıcıların, belə daşımaları yerinə yetirən sürücülərin, taxoqrafların quraşdırılması, yoxlanılması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən xidmət mərkəzlərinin (servis emalatxanalarının) texniki heyətinin və sürücülərin iş və istirahət rejiminə nəzarəti həyata keçirən dövlət orqanı əməkdaşlarının rəqəmsal taxoqraf kartları ilə təmin edilməsi üçün tədbirlər görülməsində iştirak etmək;

3.1.17. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, avtomobil nəqliyyatının infrastruktur obyektlərinin, o cümlədən avtovağzalların (avtostansiyaların), dayanacaq məntəqələrinin, avtomobil nəqliyyatı parklarının, avtomobil duracaqlarının, terminalların və digər qurğuların, habelə avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki-təmir stansiyalarının (sahələrinin), yanacaqdoldurma məntəqələrinin yerləşdirilməsi, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına dair rəy vermək;

3.1.18. avtovağzalların (avtostansiyaların) göstərdikləri xidmətlərin səviyyəsinin onlara verilmiş pasportda müəyyən olunan kateqoriyalara uyğunluğuna nəzarət etmək, avtovağzalın (avtostansiyanın) pasportla müəyyən olunmuş kateqoriyasını dəyişmək;

3.1.19. avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən avtonəqliyyat vasitələrinin qanunvericiliklə müəyyən edilmiş qaydada reysqabağı texniki müayinəsi, sürücülərin reysqabağı tibbi müayinəsi üçün müvafiq məntəqələrin təyin edilməsi məqsədilə tədbirlər görmək, həmçinin bu sahədə nəzarəti həyata keçirmək;

3.1.20. avtomobil nəqliyyatının infrastruktur obyektində (ümumi istifadədə olan avtomobil yolları istisna olmaqla) beynəlxalq sərnişin və yük daşımalarını yerinə yetirən sürücülər tərəfindən iş və istirahət rejiminə əməl olunmasına nəzarətdə iştirak etmək;

3.1.21. Naxçıvan Muxtar Respublikasının ərazisində müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərini müəyyənləşdirmək, onları quraşdırmaq və idarə olunmasını təmin etmək;

3.1.22. taksi minik avtomobilləri üçün nişanlanma xətləri əsasında duracaq yerlərini müəyyənləşdirmək və idarə olunmasını təmin etmək;

3.1.23. Naxçıvan Muxtar Respublikasının ərazisində dövlət avtomobil yollarında parklanma yerlərini müəyyənləşdirmək, onları təşkil və idarə etmək, bələdiyyə və özəl avtomobil yollarında parklanma yerlərinin təşkilində iştirak etmək, habelə parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarət etmək və parklanma qaydalarını pozmuş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görmək, o cümlədən foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılmasını təmin etmək;

3.1.24. Naxçıvan Muxtar Respublikasının ərazisində nəqliyyat qovşaqlarının (nəqliyyat mübadilə mərkəzlərinin), Agentliyin yeni avtomobil duracaqlarının (qarajlarının), həmçinin mühafizə olunan duracaqlarının yaradılması (layihələndirilməsi, tikilməsi) ilə bağlı tədbirlər görmək və vəziyyətinə nəzarəti həyata keçirmək, habelə öz balansında olan avtomobil duracaqlarını (qarajlarını) və mühafizə olunan duracaqları idarə etmək;

3.1.25. piyada-yol infrastrukturunun təşkilində iştirak etmək;

3.1.26. yol nişanlarının, nişanlanma xətlərinin və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinin yerlərini Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş normalara uyğun olaraq müəyyənləşdirmək və ya dəyişdirmək, onların quraşdırılmasına (çəkilməsinə) və lazımi qaydada saxlanılmasına nəzarət etmək;

3.1.27. avtomobil yollarının normativ hüquqi aktlarla və beynəlxalq standartlarla müəyyən edilmiş norma və tələblər səviyyəsində yol nişanları, nişanlanma xətləri və yol hərəkəti təşkilinin digər texniki vasitələri ilə təchiz edilməsi vəziyyətinin araşdırılması məqsədilə mütəmadi olaraq monitorinqlər həyata keçirmək və yolların zəruri yol hərəkəti təşkilinin texniki vasitələri ilə təchiz edilməsi məqsədilə tədbirlər görmək;

3.1.28. yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy vermək;

3.1.29. avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy vermək;

3.1.30. avtomobil yollarında tıxac yaranması səbəblərini araşdırmaq, təhlillər aparmaq və müvafiq təkliflər vermək;

3.1.31. avtomobil yollarında tıxac yaranmaması və nəqliyyat axınının tənzimlənməsi üçün ticarət, iaşə, sənaye və tikinti obyektlərinə, habelə həmin obyektlərdən yükdaşımaların iş rejiminə dair aidiyyəti üzrə təkliflər hazırlamaq;

3.1.32. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarına uyğun olaraq yerüstü nəqliyyatın hərəkəti ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.33. avtomobil nəqliyyatı ilə muxtar respublikadaxili daşımalar bazarının qorunması, daşımalar bazarında azad rəqabət mühitinin inkişaf etdirilməsi üçün tədbirlər görmək;

3.1.34. müvafiq sahədə ətraf mühitin mühafizəsinin təmin edilməsinə dair tələblərə riayət olunmasına fəaliyyət istiqamətlərinə uyğun olaraq nəzarət etmək, həmçinin ətraf mühitin mühafizəsinə dair aidiyyəti dövlət orqanlarına təkliflər vermək;

3.1.35. müvafiq sahədə peşəkar mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər vermək və onların həyata keçirilməsini təşkil etmək;

3.1.36. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində təhsil alanlar istisna olmaqla, avtomobil nəqliyyatı ilə muxtar respublikadaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, həmçinin avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq, habelə avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin (şəxslərinin), eləcə də beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair proqramlar üzrə hazırlıq və yenidən hazırlıq keçmələrini təşkil etmək və həyata keçirmək;

3.1.37. qanunvericiliklə nəzərdə tutulan hallarda və qaydada hüquqmüəyyənedici sənədlər (sertifikatlar, şəhadətnamələr və sair) vermək, müvafiq məsələlərə münasibət bildirmək;

3.1.38. müvafiq sahədə fəaliyyət göstərən subyektlər tərəfindən avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması qaydalarına əməl olunmasına, sərnişin və yük daşımalarının təhlükəsiz təşkilinə, habelə gediş haqlarının mövcud tariflərə uyğun ödənilməsinə nəzarət etmək;

3.1.39. avtonəqliyyat vasitələrinə texniki xidmət göstərən texniki təmir sahələrinin, stansiyalarının fəaliyyətinin avtomobil nəqliyyatı və yol hərəkəti haqqında qanunvericilikdə müəyyən olunmuş tələblərə uyğunluğunu səlahiyyəti daxilində yoxlamaq;

3.1.40. muxtar respublikada taxoqrafların quraşdırılması, yoxlanılması, təmiri, sınağı, kalibrlənməsi və onlara texniki xidmət göstərilməsi ilə bağlı işləri yerinə yetirən və akkreditasiya attestatı olan xidmət mərkəzlərini (servis emalatxanalarını) qeydiyyata almaq və onların fəaliyyətinin Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarının müddəalarına uyğunluğuna nəzarət etmək;

3.1.41. daşıyıcılar tərəfindən nəqliyyat vasitələrinin enerji istehlakının azaldılması, əhalinin ümumi istifadədə olan nəqliyyatdan istifadəsinin stimullaşdırılması, şəhər ərazisində piyada infrastrukturunun (piyada zonalarının, yolların, keçidlərinin və sair) yaradılması barədə təkliflər vermək;

3.1.42. yol işlərinin xarakterindən və davametmə müddətindən asılı olaraq onların başlanmasına razılıq vermək;

3.1.43. müvafiq sahədə elektron xidmətləri "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq təşkil etmək;

3.1.44. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.45. kargüzarlığın aparılması işini və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil etmək;

Ardı 5-ci səhifədə

3.1.46. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.47. balansında olan dövlət əmlakını və maliyyə vəsaitlərini idarə etmək, onlardan səmərəli istifadə etmək;

3.1.48. Agentliyin əməkdaşlarının əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək;

3.1.49. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.50. Agentliyin struktur bölmələrinin fəaliyyətinə nəzarət etmək, onların maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər görmək;

3.1.51. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.52. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş, açıqlanmalı olan ictimai informasiyanın həmin internet saytında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.53. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.54. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.55. bu Nizamnamə ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin aşağıdakı hüquqları vardır:

3.2.1. müvafiq sahədə normativ hüquqi aktların layihələrinin qəbul olunması, aktlarda dəyişikliklər edilməsi, aktların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında Nazirliyə təkliflər vermək;

3.2.2. qəza hadisələrinin baş verməsinə səbəb olan halların təhlili və qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarında baş vermiş inzibati və cinayət məsuliyyəti yaratmış hadisələr barədə müvafiq orqanlardan (qurumlardan) məlumatlar əldə etmək;

3.2.3. dövlət orqanlarına (qurumlarına), yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.4. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən olunmuş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.5. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

3.2.6. Agentliyin əməkdaşlarını dövlət təltiflərinə və digər mükafatlara təqdim etmək, onların həvəsləndirilməsi üçün Nazirliyə təkliflər vermək;

3.2.7. sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, Nazirliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.8. reysdənkənar hallarda saxlanılması üçün müvafiq duracaqları olmayan ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşımaları həyata keçirən nəqliyyat vasitələrinin Agentliyin avtomobil qarajlarında və istehsalat bazalarında müqavilə əsasında ödənişli qaydada saxlanılması üçün şərait yaratmaq;

3.2.9. ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşımanı təşkil edən və nəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, eləcə də onların sürücülərinin reysqabağı tibbi müayinəsi üçün müvafiq şəraiti olmayan hüquqi şəxslərə və ya fərdi sahibkarlara belə yoxlama və müayinələrin Agentlik tərəfindən müqavilə əsasında ödənişli qaydada həyata keçirilməsi üçün şərait yaratmaq;

3.2.10. sərnişinlərin gediş haqqını ödəməsini asanlaşdırmaq üçün dayanacaq məntəqələrində ödəniş alətlərinin quraşdırılmasını təmin etmək;

3.2.11. beynəlxalq təcrübənin tətbiqi imkanlarını araşdırmaq, qabaqcıl təcrübəni öyrənmək;

3.2.12. müvafiq sahəyə daxili və xarici investisiyaların cəlb edilməsi və onlardan səmərəli istifadə olunması ilə bağlı tədbirlər görmək;

3.2.13. təhlillər, tədqiqatlar və ümumiləşdirmələr aparmaq, habelə analitik materiallar hazırlamaq;

3.2.14. müvafiq sahədə fəaliyyət göstərən subyektlər arasında sorğular keçirmək və onların problemlərini araşdırmaq;

3.2.15. müvafiq sahədə hazırlıq və xüsusi hazırlıqdan keçmiş şəxslərə, o cümlədən avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmasında iştirak edən sürücülərə dair məlumat bazası yaratmaq;

3.2.16. müvafiq sahədə səlahiyyətləri daxilində yoxlamalar aparmaq, icrası məcburi olan göstərişlər vermək və bundan irəli gələn digər tədbirlər görmək;

3.2.17. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri göstərdiyi (hüquqi hərəkətləri həyata keçirdiyi) halda həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutmaq;

3.2.18. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qruplar və komissiyalar yaratmaq;

3.2.19. müvafiq sahədə mövcud olan hüquqi aktların tələbləri, habelə yeniliklər barədə məlumatlandırma, təbliğat işi aparmaq;

3.2.20. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. Agentliyin idarə olunması**

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyin idarəetmə orqanı onun İdarə Heyətidir.

4.3. Agentliyə ümumi rəhbərliyi və nəzarəti İdarə Heyəti həyata keçirir. İdarə Heyətinin tərkibi 3 (üç) üzvdən – Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin vəzifəyə təyin və vəzifədən azad etdiyi İdarə Heyətinin sədrindən və onun 2 (iki) müavinindən ibarətdir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərini Nazirliyin razılığı ilə İdarə Heyəti sədrinin müəyyən etdiyi müavinlərindən biri icra edir.

4.5. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.5.1. Nizamnaməsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi, habelə təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər vermək və sənədlər (o cümlədən Agentliyin illik maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.5.2. Agentliyin inkişaf istiqamətləri əsasında strateji məqsəd və planlarını müəyyən etmək;

4.5.3. Agentliyin fəaliyyətini təşkil etmək və ona nəzarət etmək;

4.5.4. Agentliyin strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin təsdiq edilməsi, o cümlədən Agentliyin əldə etdiyi vəsait (muxtar respublika büdcəsindən və dövlətə məxsus digər fondlardan ayrılan vəsait istisna olmaqla) hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sisteminin müəyyənləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

4.5.5. Nazirliyin razılığı ilə Agentliyin maliyyə planlaşdırmasını və büdcəsini təsdiq etmək;

4.5.6. Nazirliyin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Agentliyin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul etmək;

4.5.7. Agentliyin fəaliyyətinə dair daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

4.5.8. Agentliyin fəaliyyətinə dair illik hesabatı dinləmək;

4.5.9. Nazirliyin razılığı ilə Agentliyin kənar auditorunu təyin etmək və audit hesabatını qəbul etmək;

4.5.10. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görmək;

4.5.11. Agentlikdə daxili audit bölməsinin fəaliyyətinə nəzarət etmək və fəaliyyətinə dair hesabatlar almaq, habelə Nazirliyin razılığı ilə onun üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;

4.5.12. Nazirliyin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.13.aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.5.14. Agentliyin strateji məqsəd və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.5.15. Agentliyə ayrılan büdcə vəsaitindən, kreditdən, qrantdan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.5.16. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.5.17. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.5.18. bütövlükdə, Agentliyin və ya onun struktur bölmələrinin, o cümlədən idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin auditinin keçirilməsi ilə bağlı qərar qəbul etmək;

4.5.19. Agentliyin fəaliyyəti ilə əlaqədar İdarə Heyəti sədrinin və ya təsisçinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.

4.6. İdarə Heyətinin sədri ayda bir dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasında, hər üzvün bir səsi olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir. Səslərin sayı bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.

4.7. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə olunmuş məsələlər üzrə qərarlar qəbul edilir, həmin qərarlar İdarə Heyətinin sədri tərəfindən imzalandıqdan sonra qüvvəyə minir.

4.8. İdarə Heyətinin üzvlərinə, habelə İdarə Heyətinin iclaslarına dəvət olunan şəxslərə İdarə Heyətinin iclaslarının keçiriləcəyi yer və vaxt, habelə gündəliyə daxil edilmiş məsələlər barədə iclasa azı 3 (üç) iş günü qalmış, zəruri sənədlər əlavə edilməklə yazılı məlumat verilir.

4.9. İclasın gündəliyinə İdarə Heyətinin hər hansı üzvünün maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında ətraflı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir.

4.10. Gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılıq verdiyi hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.

4.11. İdarə Heyətinin sədri:

4.11.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.11.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır, iclasların gündəliyini müəyyənləşdirir və iclaslara sədrlik edir;

4.11.3. öz təşəbbüsü ilə və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.11.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.11.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.11.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.11.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.11.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, tabeliyində olan qurumların ştat cədvəlini və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.11.9. Agentliyin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.11.10. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin Nazirliyin razılığı ilə (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.11.11. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.11.12. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, banklarda hesablaşma hesabı və digər hesablar açır, müqavilələr bağlayır (o cümlədən işəgötürən qismində əmək müqavilələrini imzalayır) və müqavilələrin yerinə yetirilməsini təmin edir;

4.11.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.11.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.11.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.11.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.12. İdarə Heyətinin üzvləri:

4.12.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.12.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.12.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.12.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.12.5. İdarə Heyətinin qərarları, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.13. İdarə Heyətinin üzvləri onun iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

**5. Agentliyin Nizamnamə Fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin nizamnamə fondunun məbləği 6 432 000 (altı milyon dörd yüz otuz iki min) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, həmçinin Naxçıvan Muxtar Respublikasının büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, kreditlərdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Agentlik qanunda nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə olunmuş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. Agentlik "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri göstərdiyi (hüquqi hərəkətləri həyata keçirdiyi) halda, həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu, habelə qanunla müəyyən edildiyi hallarda digər ödənişlər tutur.

5.6. Agentliyin mənfəəti bu Nizamnamədə nəzərdə tutulmayan məqsədlər üçün yalnız Nazirliyin qərarı ilə muxtar respublika büdcəsinə köçürülür.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Nazirlik və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada İdarə Heyəti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabatlar Nazirliyə təqdim edilir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Agentliyin yenidən təşkili və ləğvi**

Agentliyin yenidən təşkilini və ləğvini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri həyata keçirir.

# Naxçıvanda doğum günü avqust ayında olan şəhidlərin xatirəsi anılıb



*Avqustun 29-da "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə avqust ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.*

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səslındirilib.

Naxçıvan Televiziyasının doğum günü avqust ayında olan şəhidlərlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib, tələbələr videoçarxda adları çəkilən 39 şəhidin portretləri ilə səhnəyə çıxıblar.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir vəzifəsinin səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə bildirib ki, ölkəmizin hər yerində olduğu kimi muxtar respublikada da şəhid ailələrinə böyük hörmət və ehtiram göstərilir. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə bu ilin yanvar ayından etibarən hər ayın sonunda doğum günü həmin aya düşən şəhidlərin xatirəsinə həsr olunan anım tədbiri keçirilir. Bu, artıq 8-ci anım tədbiridir.

Qeyd olunub ki, şəhidlərimiz üçün ən böyük abidə onların xatirəsinin əbədiləşdirilməsi, bizə miras qalan ailələrinə diqqət və qayğının göstərilməsidir. Xalqımız və dövlətimiz onların qəhrəmanlıqlarına böyük dəyər verir, Vətən oğullarının bizə əmanət etdiyi işğaldan azad edilmiş torpaqlarımızda geniş quruculuq işləri reallaşdırılır.

Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan bəhs edən Fərid Bağırzadə vurğulayıb ki, dövlət başçımızın Böyük Qayıdış planına uyğun olaraq 140 min soydaşımız 2026-cı ilədək doğma torpaqlarına qayıdacaq. Daxili və xarici siyasətdə böyük uğurlar qazanan Azərbaycan ötən dövrdə bir sıra mötəbər tədbirlərin iştirakçısına və təşkilatçısına çevrilib. Bu il isə COP29 kimi qlobal səviyyəli bir tədbir ölkəmizdə keçiriləcək. Bütün Türk dünyasını, Avropa və Asiyanı birləşdirəcək mühüm qovşaq olan Zəngəzur dəhlizinin reallaşdırılması da dövlət başçımızın müəyyənləşdirdiyi əsas strateji hədəflərdəndir. Bütün bunlar dövlət-xalq-ordu birliyinin təcəssümüdür.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov qeyd edib ki, 2020-ci ildə qəhrəman oğullar böyük tarix yazdı. Təqdirəlayiq haldır ki, həmin şanlı tarixdə Naxçıvanın ümumtəhsil məktəblərinin məzunlarının da imzası vardır. Bu gün təhsil ocaqlarımızda Vətənimizin bütövlüyü uğrunda canından keçən qəhrəmanların xatirəsi daim əziz tutulur, dərslərdə onların keçdikləri döyüş yolu uşaq, yeniyetmə və gənclərə örnək, nümunə kimi aşılanır.

Bildirilib ki, bu gün ölkəmiz ən yüksək inkişaf dövrünü yaşayır. Qarabağda böyük quruculuq işləri gedir, yeni məktəb binaları da tikilib istifadəyə verilir. Təhsil quruculuğunun bəhrəsi olan Xankəndidə yaradılan Qarabağ Universiteti yeni tədris ilində ilk tələbələri ilə fəaliyyətə başlayacaq. Naxçıvanın ümumtəhsil məktəblərini bitirən onlarla şagird də həmin universitetin tələbəsi adını qazanıb. Bu həm böyük təhsil uğuru, həm də şəhidlərimizin əziz xatirəsinə ehtiram əlaməti, qürurverici haldır.

Tədbirdə şəhid Zülal Mədətlinin atası Rəhim Mədətov və şəhid Şükür Hacıyevin anası Fatma Şükürlü qəhrəman övladları ilə fəxr etdiklərini bildirib, onların bəxş etdiyi başucalığından danışıb, qəhrəman oğulların xatirəsinin əziz tutulmasına görə minnətdarlıq ediblər.

Sonra "Altay" teatrının aktyorları tərəfindən şəhidlərimizin xatirəsinə həsr olunmuş şeir-kompozisiya təqdim olunub.

Tədbir Müzəffər Ali Baş Komandanın torpaqlarımızın işğaldan azad olunmasına dair nidalı çıxışının səsləndirilməsi ilə yekunlaşıb.

✍ **Nail ƏSGƏROV**

# Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən media nümayəndələri üçün "Milli Məclisə seçkilərdə medianın rolu və vəzifələri" mövzusunda onlayn seminar keçirilib





2024-cü il sentyabrın 1-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə əlaqədar silsilə maarifləndirmə tədbirləri çərçivəsində Mərkəzi Seçki Komissiyası və Medianın İnkişafı Agentliyinin birgə təşkilatçılığı ilə Naxçıvanda fəaliyyət göstərən media nümayəndələri üçün onlayn seminar baş tutub.

Seminarda çıxış edən Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin müdiri Vəfa İsgəndərova Agentlik tərəfindən seçki prosesini işıqlandıran media nümayəndələri ilə interaktiv əlaqə saxlanıldığını, onların suallarının operativ cavablandırıldığını, ölkəyə qarşı yönəlmiş qərəzli və sistemli saxta xəbərlərin aşkarlanaraq ifşa olunması üçün digər müvafiq dövlət qurumları ilə effektiv işin qurulduğunu diqqətə çatdırıb.

Mərkəzi Seçki Komissiyasının üzvü Hüseyn Paşayev isə qeyd edib ki, media nümayəndələri sərbəst şəkildə istənilən məntəqədə və ya dairədə seçkiləri müşahidə etmək hüququna malikdirlər. O vurğulayıb ki, media təmsilçilərinin öhdəliyi seçki prosesinin bütün mərhələlərində şəffaflığa nəzarət, seçkinin gedişini və nəticələrini obyektiv işıqlandırmaqdır.

Seminarın sonunda jurnalistlərin sualları cavablandırılıb və onları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

# "Şərq qapısı" qəzetinin yeni saytı fəaliyyətə başlayır




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan "Şərq qapısı" qəzeti ölkəmizin şanlı keçmişə, böyük mətbuat ənənələrinə malik media orqanlarındandır. Qəzet fəaliyyətində həm hazırkı statusunu, həm də tarixi missiyanı nəzərə alaraq Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kursun fəal təbliğatçısı kimi fəaliyyətini davam etdirir.

İşini müasir dövrün tələbləri çərçivəsində quran "Şərq qapısı" yeni saytı *http://serqqapisi.az/* və yeni loqosu ilə müasir çağırışlara adekvat şəkildə öz fəaliyyətini genişləndirməyə, oxucularına modern informasiya xidməti göstərməyə davam edəcək.

# Əmək yarmarkası olub



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 50-dən çox işəgötürənin iştirakı ilə əmək yarmarkası keçirilib.

Yarmarkada Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini, nazir səlahiyyətlərini müvəqqəti icra edən Fərid Bağırzadə çoxsaylı iş yeri təklifinin əhalinin məşğulluq problemlərinin həllində əhəmiyyətli rol oynadığını bildirib. Qeyd edib ki, muxtar respublikada işaxtaran şəxslərin məşğulluqlarının təmin edilməsi, o cümlədən əmək bazarında rəqabətədavamlılığın artırılması, kadr potensialının yüksəldilməsi daim diqqət mərkəzindədir. Bu baxımdan gənclərlə yanaşı, xüsusi ixtisası və ya peşəsi olmayan, əməkqabiliyyətli şəxslərin məşğulluğunun təmin edilməsi də mühüm əhəmiyyət daşıyır. Əmək yarmarkaları bu kateqoriyadan olan şəxslərin işlə təmin olunması istiqamətində vacib məşğulluq tədbirlərindən biridir.

Qeyd edək ki, yarmarkada 30-dan artıq dövlət, 20-dən artıq özəl müəssisədən, ümumilikdə, 350-dən çox vakansiya işsiz və işaxtaran vətəndaşlara təqdim olunub. Vakansiyalar üzrə müraciət edən işsiz və işaxtaran şəxslərdən CV-lər qəbul edilərək nəzərdən keçirilib. Onların həmin vakansiyalar üzrə məşğulluqlarının təmin edilməsi üçün işlərə başlanıb.

Yarmarkada, həmçinin işsiz və işaxtaran şəxslərə Agentliyin aktiv məşğulluq tədbirləri barədə də məlumat verilib, müraciət edən şəxslərlə ilkin sorğular aparılıb.

# Təcili Tibbi Yardım Xidmətinin maddi-texniki bazası gücləndirilir

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilən tədbirlər davam etdirilir.

Dövlət Proqramına uyğun olaraq Təcili Tibbi Yardım Xidmətinin maddi-texniki bazası gücləndirilir. Belə ki, əhaliyə daha keyfiyyətli təcili və təxirəsalınmaz tibbi xidmət göstərmək üçün 52 ədəd təcili tibbi yardım avtomobilinin (sadə differensiallı təcili tibbi yardım avtomobilləri, perinatal küvezlə təchiz olunmuş təcili tibbi yardım avtomobilləri, xüsusi yolsuzluq ərazi üçün təcili tibbi yardım avtomobilləri) alınması üçün müvafiq işlər həyata keçirilir. Təcili tibbi yardım avtomobillərinin alınması, köhnə avtomobillərin daxili təchizatının yaxşılaşdırılması, 26 geolokasiyada yerləşən təcili tibbi yardım şöbələrinin təchizatının gücləndirilməsi üçün aparılan satınalma prosesləri davam etdirilir.




# Naxçıvanda ilk dəfə MEDİA könüllülərinin yaradılmasına start verilir




MEDİA könüllüsü 18-29 yaş arası gənclər ola bilərlər. "MEDİA könüllüləri" proqramı 3 ay müddətində davam edəcək. Qoşulmaq istəyənlər linkə daxil olaraq qeydiyyatdan keçə bilərlər: *https://media.gov.az/media-konulluleri-qeydiyyat-formasi/*

# Beynəlxalq Kembric Məktəbində valideynlərlə görüş



Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Kembric Məktəbində yeni qəbul olunan şagirdlərin valideynləri ilə görüş keçirilib.

Görüşdə universitetin rektoru Elbrus İsayev Prezident cənab İlham Əliyevin təsdiq etdiyi 2023-2027-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın əhəmiyyətinə toxunub. Qeyd edilib ki, bu proqram çərçivəsində Naxçıvan Dövlət Universitetinin beynəlxalq təhsil sisteminə inteqrasiyası və müasir tədris imkanlarının genişləndirilməsi nəzərdə tutulur.

Rektor çıxışında Beynəlxalq Kembric Məktəbinə 2024-2025-ci tədris ili üçün 1-ci sinif və 6-cı siniflər üzrə hər biri 40 nəfər olmaqla, ümumilikdə, 80 şagirdin qəbul olunduğunu bildirib. Elbrus İsayev məktəbin Kembric Beynəlxalq Təhsil Sistemi əsasında fəaliyyət göstərdiyini və bu tədris modelinin ölkəmizin digər universitetlərində hələ tətbiq olunmadığını qeyd edib.

Məktəbin direktoru Bayram Əliyev Kembric standartlarına cavab verən tədris laboratoriyaları, kitabxana, idman meydançaları və imtahan mərkəzi haqqında məlumat verib. Bayram Əliyev, həmçinin hazırda məktəbdə 19 müəllimin çalışdığını və onların hər ayın sonunda bacarıqlarının qiymətləndiriləcəyini qeyd edib.

Məktəbin dil siyasətindən danışan direktor bildirib ki, bütün tədris ingilis dilində aparılır və müəllimlərdən IELTS imtahanında ən azı 6.5 bal toplamaq tələb olunur. Bundan əlavə, şagirdlərə Azərbaycan dili və ikinci xarici dilin öyrənilməsi də tədris proqramına daxildir. Müəllimlər üçün də mütəmadi olaraq ingilis dili imtahanları və peşəkar inkişaf imkanları yaradılacaq. Bunun üçün CELTA, Kembric müəllimlər üçün təlimçi sertifikatı, DELTA Modul 1 və Kembric CEFR C2 sertifikatlarına, Kembric məktəblərində 24 illik təcrübəyə malik Fabian Chavezin artıq NDU Beynəlxalq Kembric Məktəbinə dəvət olunduğu vurğulanıb. "Fabian, həmçinin dərslərin akademik keyfiyyətinin ölçülməsi, müəllimlərə konstruktiv feedback-ların verilməsini də həyata keçirəcək", – deyə çıxışda diqqətə çatdırılıb.

NDU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Aidə Cəlilzadə valideynlərə şagirdlərin nailiyyətlərini elektron sistem vasitəsilə izləyə biləcəklərini bildirib. Eyni zamanda tədris müddətində şagirdlərə Kembricdə yay məktəbləri, olimpiadalarda iştirakların təklif ediləcəyi vurğulanıb. Şagirdlərin transferi ilə bağlı məlumatlar da valideynlərin diqqətinə çatdırılıb.

Sonda valideynlər məktəbdə tədris üçün yaradılan şəraitlə tanış olublar.

# Uğur hekayələri

İxtisas seçimlərinin nəticələrinin açıqlanması ilə bir çox gənc tələbəlik həyatına ilk addımlarını atdı. Bəli, respublikamızın orta təhsil məktəblərindən məzun olan 50 mindən çox abituriyent artıq tələbə adını daşıyır. Sevindirici haldır ki, bu il ali təhsil ocaqlarının sırasına Qarabağ Universiteti də qoşuldu və ixtisas seçimlərində ilk sıralarda yer aldı. Təhsil ekspertlərinin verdiyi məlumata əsasən Qarabağ Universitetindəki ilkin qəbul göstəricisi ölkəmizin digər ali təhsil müəssisələrindən geridə qalmayıb... Ölkəmizin, demək olar ki, bütün abituriyentlərinin seçimində Qarabağ Universiteti ilk sıralarda dayanıb. Bu universitetin tələbəsi adını qazananlar sırasında muxtar respublikamızın gəncləri də var:

## Naxçıvandan Xankəndiyə uzanan təhsil yolu




Gülay Qasımova
624 bal

"İxtisas seçimlərinin cavabları açıqlananda çox həyəcanlandım. Yüksək bal toplamağıma baxmayaraq, seçdiyim ixtisasın balının artmasından narahat idim. Nəticələr elan ediləndə və seçdiyim İngilis dili müəllimliyi ixtisasına qəbul olunduğumu biləndə sevincimin həddi-hüdudu yox idi. İlk olaraq illərlə həsrətini çəkdiyimiz doğma yurdumuzda – Xankəndi şəhərində təhsil alacağımı, o cümlədən işğaldan azad edildikdən sonra Qarabağ Universitetində yazılan yeni təhsil tarixinə adımızın düşəcəyini biləndə sevincim sanki daha da artdı. Sevincliyik, qürurluyuq ki, azad və müstəqil bir ölkədə təhsil alırıq. Xoşbəxtik ki, yenidən qurulan Qarabağ Universitetinin ilk tələbələri adını qazanmışıq. Çalışacağıq ki, bundan sonrakı həyatımızda və gələcək təhsil yolumuzda da dövlətimizin mənafeyini müdafiə edək və Ali Baş Komandanımız başda olmaqla Qarabağı işğaldan azad edən şəhidlərimiz kimi biz də öz biliyimizlə, savadımızla daim dövlətimizin bayrağını ucalarda dalğalandıraq".

"Birinci Qarabağ müharibəsində şəhid vermiş bir ailədə böyümüşəm. Əmim Heydər Abbasov 1994-cü ildə Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Hələ uşaq yaşlarımdan atamdan, nənəmdən, ailə böyüklərimin söhbətlərindən Vətən sevgisinin, yurd məhəbbətinin nə olduğunu öyrənmişəm.

Nəticələr elan olunanda və Qarabağ Universitetinə qəbul olduğumu öyrənəndə çox sevindim. Tək mən yox, elə ailəmizin bütün üzvləri sevindilər. Ancaq ən böyük sevinci, təbii ki, mən yaşadım. Çünki Qarabağın mənim həyatımdakı rolu çox böyük olacaq, bunu yaxşı bilirəm. Biz o torpaqları şəhidlərimizin, qazilərimizin qanı, canı bahasına əldə etmişik. Allahdan şəhidlərimizə rəhmət diləyirəm və onların müqəddəs ruhları qarşısında baş əyirəm. Bütün varlığımla dövlətimizi əmin edirəm ki, yaxşı təhsil alacaq, ixtisasımı hərtərəfli öyrənəcək və xalqımıza layiqli vətəndaş olacağam. Ali Baş Komandanımız ***"Bizim sözümüz imzamız qədər dəyərlidir"***, – deyib. Mən də dediyimi doğrultmaq üçün çalışacağam".




Əlican Abbasov
565 bal

## Gənc nəsil nurlu sabahımıza doğru inamla irəliləyir

*Şərur rayonunda da ötən illərdə olduğu kimi, 2023-2024-cü tədris ilində də yüksək nəticələr əldə edilib.*



***Aminə Məmmədova:*** "Rayonun Qorçulu kənd tam orta məktəbinin məzunuyam. Üçüncü ixtisas qrupu üzrə 660 bal toplamışam. Arzum hüquqşünas olmaqdır. Seçdiyim sənətin nə qədər məsuliyyətli bir peşə olduğunu yaxşı dərk edirəm və bu yolda uğur qazanmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Bu yolu uğurla keçib biliyimlə, fəaliyyətimlə xalqımıza xeyir verəcəyim günlər isə ən xoşbəxt çağlarıma çevriləcək. Əminəm ki, dövlət qayğısının əhatəsində böyüyən biz gənclər gələcəkdə peşəkar kadr, yaxşı mütəxəssis kimi dövlətimizə, xalqımıza layiqincə xidmət edəcəyik. Çünki bu sənəti seçənlər həyatlarını insanların hüquqlarının müdafiəsi kimi müqəddəs bir marama həsr edirlər. Bundan yaxşı, bundan nəcib nə iş ola bilər? Azərbaycan Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olmağım bu yolda atdığım ilk addımdır".



***Eldar Əliyev:*** "Tumaslı kənd tam orta məktəbini bitirmişəm. Buraxılış və qəbul imtahanlarında 615 bal toplamışam. Qazandığım biliklər ali məktəblərə keçirilən qəbul imtahanında da yaxşı nəticə əldə etməyimə səbəb olub. Seçdiyim ixtisasa gəldikdə isə ən böyük arzum hüquqşünas olmaqdır. Bu arzumun reallaşması mənə dünyanın sevincini bəxş edəcək. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının Hüquq fakültəsində gələcəyin savadlı hüquqşünası kimi yetişməyi qarşıma məqsəd qoymuşam".



***Ümüsüm Allahverdiyeva:*** "Şərur rayon Xələc kənd tam orta məktəbinin məzunuyam. III ixtisas qrupu üzrə 609 bal toplamışam. Kəndimizin məktəbində bizim yaxşı təhsil almağımız üçün hər cür şərait var. Şeirlər də yazıram, roman da. Məktəb illərində bir çox yazı, əl işləri yarışlarında da iştirak etmişəm. Mənim isə ən böyük arzum savadlı hüquqşünas olmaqdı. Biz şagirdlərin uğurlarının səbəbi dövlətimizin yaratdığı şərait, ixtisaslı müəllimlərdir. Sevinirəm ki, qəlbimdəki istəyimə qovuşdum. Milli Aviasiya Akademiyasının Hüquq fakültəsinə qəbul oldum".

## Muxtar respublika üzrə ən yüksək bal toplayan tələbə



***Culfa şəhər 3 nömrəli tam orta məktəbin məzunu Kənan İsmayıllı:*** "İmtahanlarda, ümumilikdə, 691.9 balla ən yüksək nəticəyə nail olmuşam. Məqsədim uşaqlıqdan bəri maraq göstərdiyim xüsusi təyinatlı ali təhsil müəssisəsinə qəbul olmaq idi və artıq arzuma çatmaqdayam. Bu uğurumun təməlində aşağı siniflərdən müəyyən məqsədimin olması, çox çalışmaq, o cümlədən vaxtımın düzgün qiymətləndirməyim dayanır. Burada valideynlərimin, müəllimlərimin əməyini xüsusi qeyd etmək istəyirəm.

Gəncliyin inkişafına göstərilən qayğıkeş münasibətə, yaxşı təhsil almağımız üçün yaradılan müasir şəraitə görə yüksək nəticə göstərmiş məzunlar adından ölkə başçısı cənab İlham Əliyevə minnətdarlığımızı bildiririk".

## Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Musiqi Kollecini müxtəlif ixtisaslar üzrə bitirmiş 5 məzun Qarabağ Universitetinin tələbəsi adını qazanıb

***Şəfəq Hüseynli, Aytən Seyidova*** Kamança, ***Ehtiram Ağazadə*** İnstrumental ifaçılıq Fortepiano, ***Həbib Hüseynov*** Vokal, V***üqar İsmayılzadə*** isə Skripka ixtisasları üzrə təhsillərini Qarabağ Universitetində davam etdirəcəklər.




Onlar bildirdilər ki, milli musiqi alətlərimizin sədaları işğaldan azad olunmuş torpaqlarımızda daha gur səslənəcək. Təbii ki, onların da təhsil alacağı Qarabağ Universiteti ilə bağlı arzuları çoxdur. Ümid edirlər ki, arzuları elə oradaca, Qarabağda çiçək açacaq.

## 100 yaşlı məktəbin məzunları



Bu il 100 yaşı tamam olan Şahbuz rayonunun Kükü kənd Allahqulu Quliyev adına tam orta məktəbin 2023-2024-cü tədris ilində bitirən 9 məzundan 8-i respublikanın müxtəlif universitetlərinə qəbul olub. Qeyd edək ki, onlardan 4-ü 500-700 intervalında bal toplayıb. Məzunlardan Turqay Məmmədov "Gümüş" nişana, 2 şagird isə fərqlənmə attestatına layiq görülüb.

## Qəbul imtahanında 100 faiz nəticə göstərən məktəb



Ordubad rayonunun Hüseyn Məmmədov adına Dırnıs kənd tam orta məktəbinin 8 məzununun hamısı ali məktəb tələbəsi adını qazanıb. Məktəb buraxılış imtahan nəticələrinin orta balına görə Ordubad rayon ümumi təhsil müəssisələrinin sıralamasında I yeri tutmuşdur.

Məzunlardan Elxan Qasımlı fərqlənmə attestatı ilə məktəbi bitirərək 655.4 balla Bakı Ali Neft Məktəbinin Biznesin təşkili və idarə olunması fakültəsinin tələbəsi adını qazanmışdır. Rauf Qurbanov 495 balla Qarabağ Universitetinə, Fatma Novruzova 475 balla Azərbaycan Pedaqoji Universitetinə, Üzeyir Nəbisoy 470 balla Azərbaycan Texniki Universitetinə, Fərəmaz Abtalıbov 340 balla Naxçıvan Dövlət Universitetinə, Gülüzar Cəfərova 307 balla Naxçıvan Müəllimlər İnstitutuna, Röyal Muradlı 186 balla Azərbaycan Kooperasiya Universitetinə, Elcan Məmmədov buraxılış imtahanında 180 bal toplayaraq Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına daxil olmuşdur.

## Sərhəd rayonunun məzunlarının uğuru hər kəsi sevindirir

*Muxtar respublikamızın sərhəd bölgəsi olan Sədərək rayonunda da təhsilə göstərilən dövlət qayğısı nəticəsində hər il ali təhsil müəssisələrinə qəbul olunanların sayı artır. Rayonda fəaliyyət göstərən tam orta məktəbin məzunları ali məktəblərə builki qəbul imtahanında müvəffəqiyyətlə iştirak ediblər.*



Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Murad Rzazadə:*** "Düşmənlə üz-üzə yaşamağımıza, sinif otaqlarının pəncərələrindən düşmən postlarını görməyimizə baxmayaraq, ordumuzun müdafiə qüdrəti, məktəbimizdə yaradılan müasir şərait sayəsində burada sabitlikdə təhsil alır və qəbul imtahanlarında yüksək nəticə göstərərək müəllim və valideynlərimizi sevindiririk. Bu şəraitdən bəhrələnənlərdən biri olduğum üçün çox xoşbəxtəm. Qatıldığım bilik yarışlarında, həmçinin fənn olimpiadalarında nailiyyətlər əldə etmişəm. İmtahanlarda, ümumilikdə, ikinci qrup üzrə 631 bal toplamışam. Seçimim Naxçıvan Dövlət Universitetinin tədrisi ingilis dilində olan İqtisadiyyat ixtisası oldu. Uğurlarımızın təməlində, ilk növbədə, dövlət qayğısı dayanır. Məktəbimizdə şagirdlərin müasir informasiya texnologiyalarının sirlərinə mükəmməl yiyələnmələri üçün yaxşı şərait vardır. Müasirtipli kompüterlər, elektron lövhəli sinif otaqları şagirdlərin ixtiyarına verilib ki, bu da təhsildə keyfiyyət dəyişikliklərinə zəmin yaradıb. Öhdəmizə düşən yaxşı təhsil alıb gələcəkdə çalışacağımız işdə dövlətimizə yararlı olmaqdır. Arzuma çatmağım mənə dünyanın sevincini bəxş etdi".



Sədərək rayon Dəmirçi kənd tam orta məktəbinin məzunu ***Aysel Muradova:*** "557 bal toplayaraq yüksək nəticə göstərmişəm. Mən Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olmuşam. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğının müqabilində yaxşı oxumalı, gələcəkdə xalqımız üçün yararlı kadr olmalı, daim çalışmalıyıq. Tələbə adını qazanmaqla iş bitmir. Qarşıda daha məsuliyyətli bir dövr vardır. Daha çox oxumaq, öz üzərində işləmək lazımdır. Bunun üçün biz gənclərə hər cür şərait yaradılıb. Ona görə də dövlətimizə minnətdaram. Çalışacağam ki, valideynlərimi, mənə dərs deyən müəllimləri bundan sonra da sevindirim".



Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Gümüş Abbasova:*** "Qəbul imtahanında III qrup üzrə 561 bal toplamışam. Hər birimiz fəxr edir, qürur hissi keçiririk ki, son illərdə muxtar respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da təhsil müəssisələri tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Təhsil aldığım Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəb də bunlardan biridir. Məktəbdə yeniyetmə və gənclərin hərtərəfli təhsil alması üçün hər cür şərait mövcuddur. Təbii ki, belə təhsil ocaqlarında oxuyan məzunun ali məktəbə qəbul olması heç də çətin deyil. Mən də bu qayğılardan bəhrələnənlərdən biriyəm. Azərbaycanın ən qədim ənənələri olan Bakı Dövlət Universitetində Tarix ixtisası üzrə təhsil alacağam".

# Dünyanın gözü Azərbaycanda



Regional münaqişələrin böyümə təhlükəsinin artdığı və beynəlxalq siyasətdə münasibətlərin kəskinləşdiyi bir dövrdə dünyada təhlükəsizlik arxitekturasının yenidən dizayn olunması və sağlam iqtisadi əlaqələrin qurulması kimi məsələlər hazırda qarşıda duran ən ciddi problemlərdəndir. Hər gün silahlı toqquşmalardan və çətin həyat şərtlərindən məhv olan minlərlə insanı deyil, yalnız öz ölkələrinin maraqlarını güdən iri dövlətlərin siyasətçilərinin böyük oyunlarının nəticəsi olan qlobal böhran dərinləşdikcə sağlam düşüncəyə, humanitar və mədəni əlaqələrin dərinləşməsinə, dayanıqlı iqtisadi və ekoloji inkişafa aparan addımların da dəyəri hər keçən gün artmaqdadır.

Soyuq müharibə dövründən sonra ən gərgin mərhələlərindən birini yaşayan planetimizdə xalqlar arasında davamlı sülhün yaradılması, bu mənada, çətin, ancaq olduqca məsul vəzifədir. Buna görə də sözdə dünyadakı qlobal təhlükəsizliyə məsuliyyət daşıyan böyük dövlətlərin bir-birinə olan etibarının itdiyi bu dönəmdə Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, bütün yaxın bölgəmizdə sülhün və xalqlararası etimadın yenidən bərqərar olmasına yönəlmiş mövqeyi hər kəs üçün ümid yeri olmaqdadır. Belə ki, dövlət başçımız Prezident cənab İlham Əliyev qlobal arenadakı nüfuzu və uzaqgörən siyasi dəst-xəti ilə təkcə ölkəmizin maraqlarının qorunmasına deyil, həm də bütün Cənubi Qafqazda və yaxın regionumuzda sabitliyin yaradılmasına xidmət etməkdədir. Ölkəmizin tam suverenliyinə qovuşması ilə yaranmış yeni geostrateji reallıq dövründə dövlət başçımızın dünya liderləri ilə təmaslarındakı xarizmatik tutumu, ölkəmizin maraqlarının qətiyyətli müdafiəçisi imici artıq dünyanın gözünü Azərbaycana yönəltmişdir.

Son illər Azərbaycanın uğurlarına sevinənlər qədər qısqananlar da yaxşı bilirlər ki, bir ölkədə əldə olunmuş siyasi və sosial-iqtisadi sabitliyin əsası məhz sarsılmaz dövlət-xalq-ordu birliyinin ən yüksək səviyyəsi ilə qazanılıb. Başqa sözlə, ölkəmizdən qat-qat böyük ərazisi, yaxud təbii sərvətləri və ya insan resursları olsa da, belə sabitliyə və geostrateji çəkiyə malik ola bilməyənlərlə müqayisədə Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuz məhz ölkə daxilindəki sabitlik, çoxmillətli vətəndaşlarımızın dövlət başçımızın ətrafındakı sıx birliyi ilə əldə olunmuşdur. Bu gün ölkəmizin dostlarının artması, dövlətimizin yeritdiyi mehriban qonşuluq siyasəti də əlavə olunduqda Azərbaycanın cazibə mərkəzi halına gəlməsinin səbəblərini açıqca görə bilirik. Qarabağın düşmən işğalından azad olunması ilə nəticələnmiş 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun qazandığı böyük Zəfər isə, ümumiyyətlə, dünyada ölkəmiz haqqında təsəvvürləri tamamilə dəyişdirdiyi kimi, bütün bölgəmizdə geostrateji reallıqları da yenidən formalaşdırmaqla bir ölkənin işğal altında olan torpaqlarının gec-tez azad olunacağını dünyaya bir daha sübut etdi.

Azərbaycan tam suveren dövlətdir və dövlət başçımız da xalqın iradəsinə uyğun olaraq tam müstəqil siyasət yeridir. Bu gün ölkəmiz sahib olduğu təbii sərvətlər və iqtisadi-mədəni potensial ilə dünya birliyinin qarşısında dayanan mühüm problemlərin həllində aparıcı dövlətlər sırasına çıxıb. Davam edən Rusiya-Ukrayna müharibəsi və qarşılıqlı sanksiyalar səbəbindən dərin enerji böhranı yaşayan Avropanın enerji təhlükəsizliyinə zəmanət verilməsi, eyni zamanda qeyri-neft məhsulları ilə Rusiya bazarında payını artırması istənilən halda ölkəmizin etibarlı iqtisadi partnyor olduğunu göstərir. Ölkəmiz Orta Dəhliz üzərindəki aparıcı tranzit mövqeyi, nəqliyyat və logistika sahəsində son illərdə həyata keçirdiyi mühüm infrastruktur layihələri ilə Çindən Londona qədərki nəhəng coğrafiyada sağlam ticarət əlaqələri qurmaq istəyənlərin də gözünü çevirdiyi məkan halına gəlib. Avropa-Çin körpüsündə Rusiya və Qırmızı dəniz marşrutlarının təhlükəli hala gəlməsi ilə Orta Dəhlizin rolunun artması və Türk dövlətləri birliyinin daha da möhkəmlənməsi nəticəsində Azərbaycanın üzərinə düşən yük artmış və ölkəmiz bu situasiyanı hər kəsin qazana biləcəyi bir iqtisadi fürsət kimi dəyərləndirməyə çalışmaqdadır. Bu gün qardaş ölkələr olan Türkiyə və Özbəkistanla, həmçinin qonşu Rusiya ilə müttəfiq olan, dünyada ABŞ-nin birincilik mövqeyini əlindən almağa başlayan Çinlə strateji tərəfdaşlıq münasibətləri qurmuş Azərbaycan, bu mənada da, Cənubi Qafqazın lider ölkəsi olmağı bacarmış və konfliktlərdən əziyyət çəkən digər ölkələrin xalqları üçün sülhə qovuşmağın yolunu göstərən mayak halına gəlmişdir.

> ***“Dövlət başçımız Prezident cənab İlham Əliyev qlobal arenadakı nüfuzu və uzaqgörən siyasi dəst-xəti ilə təkcə ölkəmizin maraqlarının qorunmasına deyil, həm də bütün Cənubi Qafqazda və yaxın regionumuzda sabitliyin yaradılmasına xidmət edir. Ölkəmizin tam suverenliyinə qovuşması ilə yaranmış yeni geostrateji reallıq dövründə dövlət başçımızın dünya liderləri ilə təmaslarındakı xarizmatik tutumu, ölkəmizin maraqlarının qətiyyətli müdafiəçisi imici artıq dünyanın gözünü Azərbaycana yönəltmişdir.”***

Azərbaycan gözəlliklər ölkəsidir. Böyük Vətənimizə səyahət edən hər bir kəs Bakının cazibəsinə, Qarabağın hüsnünə, Naxçıvanın tarixinə heyran qalır, Xəzərin sahillərində sağlamlığını möhkəmləndirir. Xalqımıza xas yüksək tolerantlıq mühiti və multikultural ənənələr Cənubi Qafqazın bu gözəl ölkəsinin turizm cazibəsini daha da artırır və dünyadakı hər cür fobiya xəstəliyinə tutulanlara qarşı ən uyğun mesaj verir. Otuzillik erməni işğalından xilas edilmiş Qarabağda aparılan dirçəliş və yaşıl iqtisadiyyat qurulması işləri ölkəmizin sülhməramlı işlərinin sözdə deyil, əməldə olduğunu dünyaya bəyan edir. Qarabağ və Şərqi Zəngəzuru ziyarət edən xarici ölkə başçıları, diplomat və jurnalistlər bir an öncə Azərbaycan Bayrağının dalğalandığı hər yerdəki abadlığı və yaşıllığı görür, gələcəkdə dünyada qurulacaq ağıllı yaşayış standartları haqqında indidən təsəvvür əldə edirlər. İşğal izlərinin hələ də qaldığı torpaqlarımızdakı erməni vandalizminin əyani sübutunu dünyaya nümayiş etdirən bu missiyalar digər bir tərəfdən də öz ölkələrinə Azərbaycan reallıqları barədə ən doğru məlumatları aparır, Azərbaycanı öz gözləri ilə görmək istəyənlərin canlı təbliğatçısına çevrilirlər.

Beynəlxalq müstəvidə Azərbaycana gözünü dikmiş Türk və İslam dünyası üçün ölkəmiz uzaq və yaxın keçmişin bütün sınaqlarından üzüağ çıxaraq hərb və diplomatiya sahəsində böyük təcrübə toplamış bir dövlət halına gəlib. Hələ 2009-cu ildə Naxçıvanda əsası qoyulmuş Türk Dövlətləri Təşkilatının gücləәnərək qlobal güc halına gəlməsi ilə Azərbaycan bu coğrafiyanın ən layiqli yaşıl ölkəsi olma imici də qazanmışdır. Belə ki, hələ işğaldan azad olunmuş Qarabağdakı məscidlərimizə ölkəmizdə yaşadılan ən ülvi və ən səmimi islami dəyərləri ilk olaraq daşıyan dövlət başçımız Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir daha bu torpaqların müharibə və qan görməməsi üçün dualar etmiş, Qarabağın yenidən inşası üçün başda Türk dünyası olmaqla bütün insanlığı həmrəy olmağa çağırmışdılar. Qarabağın otuz il əvvəlki yaşıl libasına, gül-çiçəyinə qovuşması isə təkcə ölkəmizin və Türk-İslam dünyasının rifahi üçün deyil, ekoloji böhrandan əziyyət çəkən digər xalqlar üçün də bir çıxış yolu olacaq.

Yaşıl iqtisadiyyat qurulması, “yaşıl enerji”yə keçid və ümumilikdə, yaşıl dünya naminə səfərbər olmuş Azərbaycan bu il ölkəmizdə keçiriləcək nəhəng iqlim sammiti – COP29-un təşkilatçılığı ilə dünyanın gözündə bir daha yüksələcək. Artıq hər kəs etiraf edir ki, bu gün dünya düzəninə məsul olan iri güclər sürətlə silahlanma və karbon tullantılı sənaye ilə planetin ekoloji gələcəyini təhlükə altına aldıqları halda Azərbaycan davamlı inkişaf naminə qarşıya qoyduğu hədəfləri ilə dünyanın gözünə dik baxa bilən az sayda ölkələrdən biridir.

Beləliklə, bu günün bütün reallıqlarına baxdıqda ölkəmizin inkişaf yolu, dövlət başçımız Prezident cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət dünya analitiklərinin diqqət mərkəzində, Azərbaycanla dost və müttəfiq olub birgə uğur qazanmaq istəyənlərin maraq dairəsindədir. Bununla belə qərbdən şərqə, şimaldan cənuba bütün dünyanın gözü Azərbaycanda olduğu halda işğalçı, məğlub və revanşist Ermənistanın gözü isə hələ də Azərbaycan torpaqlarındadır. Səhərlər yuxudan qalxıb eyvandan görünən Ağrı dağından gözünü çəkə bilməyən dilxor ermənilərin 44 günlük müharibədən və ötən il 19 sentyabr antiterror əməliyyatındakı başlarına gələn rüsvayçı məğlubiyyətdən sonra da yenidən silahlanıb Azərbaycan torpaqlarına göz dikmələri, az desək, ən azı xoruz dikbaşlığıdır. Fransasayağı xoruzlar kimi ortaya düşüb banlayaraq yenidən insanların səhər yuxusunu qaçırmaq istəyən ermənilər o dövrün artıq çoxdan bitdiyini, o qatarın artıq çoxdan getdiyini unutmamalıdırlar. Yeni reallıq qalib dövlət başçısının dediyinə qulaq asmaq, xəyallara qapılmadan konkret faktları düzgün qiymətləndirməkdir. Faktlar isə çoxdur: Ermənistandan fərqli olaraq Azərbaycanın dostlarının sayı artır, Çindən Avropaya gedən qatarlar artıq çoxdan Bakı-Tbilisi-Qars yolu ilə hərəkət edir, Şuşa beynəlxalq turizm mərkəzinə çevrilir, Füzulidən Avropaya təyyarələr uçur, türk dövlətləri Qarabağda məktəblər tikir, “Qarabağ” futbol komandası Avropada uğurlar qazanır, Xankəndidə oxuyacaq tələbələr isə ilk dərslərə hazırlaşırlar... Bir sözlə, bu dəfə dünyanın gözü Azərbaycandadır!

**Əli CABBAROV**



# 100 ilin qəhrəmanları

*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Babək rayonunun Şıxmahmud kəndindən olan şəhidimiz Mayis Məhərrəmovun atası Füzuli Məhərrəmovun, Babək rayonunun Payız kəndindən olan şəhidimiz İmaməddin Hümbətovun anası Təranə Hümbətovanın və Babək rayonunun Nehrəm qəsəbəsindən olan şəhidimiz Elvin Teymurovun anası Müşkünaz Teymurovanın övladları haqqında xatirələri yer alıb.*

## Mayis Füzuli oğlu Məhərrəmov

*(14.07.1982-26.09.2023)*

## Qəhrəmanlıq örnəyi





Uşaqlıqdan hərbi sahəyə marağını hiss etmişdim. Lakin düzünü deyim ki, gözümdən qırağa qoymaq istəmirdim. Düşünürdüm ki, kənddə qalsın. Böyük torpaq sahəmiz var. Əkək, becərək, ailəmizi dolandıraq. İndi kənd yerində hamı torpaqla dolanır. Pis də dolanmırlar. Mən də gözümü açıb belə görmüşəm.

Nə isə... Məktəbi bitirdi. Yaxşı oxuyurdu. Vaxtı çatanda hərbi xidmətə getdi. Telefon danışıqlarından yaxşı xidmət etdiyini başa düşürdüm. Hiss edirdim ki, hərbçi olmaq fikrindən hələ də daşınmayıb. Hərbi xidmətdə olduğu müddətdə evə məzuniyyətə gələrkən bildim ki, Mayis dediyini edəcək. Əsgərlikdən gəldi. Gedib Bakıda könüllü olaraq oxudu və hərbiyə işə düzəldi. Onu tankçı kimi xidmətə göndərdilər.



Oğlumla axırıncı danışığımız 2023-cü il sentyabr ayının 19-u oldu. Anası ilə danışdı. Buradan gedəndən sonra Füzuliyə göndərmişdilər. Komandirin UAZ maşınını sürürdü. Onunla postları gəzirdi.

Son danışığında dekabr ayında məzuniyyət götürüb gələcəyini dedi. Çox sevindik. Deyirdi ki, ata, sən get qonşuda Nəcəf həkimlə danış, dişlərini düzəltdir, pulunu özüm verəcəyəm. Sonra ayrı bir həkim var, get o da gözlərini müayinə etsin. Nə lazım olsa, özüm həll edəcəyəm. Tezliklə görüşərik. Bu cür qayğıkeş bir övlad idi. Öz balalarına da mehriban idi. Onlar üçün əlindən gələni edirdi. Şəhid olan günü komandiri ilə danışdım. Dedi ki, mən Şahbuz rayonunun Badamlı kəndindənəm. Mayis gəlib yanıma düşəndə soruşdum ki, nə sənətin sahibisən? Dedi ki, sürücüyəm. İndi maşınımı Mayis idarə edir. Hara gəldi onunla birgə gedib baxırıq. Neçə yaralı əsgəri qucağına, çiyninə alaraq döyüş zonasından çıxarıb. Razılıq etdi ki, sağ olun, belə övlad böyütmüsünüz.

Mayis şəhidliyə ucalmış yüzlərlə şəhidimizdən biridir. Bu gün övladları atasız böyüsə də, qürurluyuq. Ona görə ki, o bizim bu günümüzün yolunda şəhid olub. Allah bütün şəhidlərimizin ruhunu şad etsin, qəbirləri nurla dolsun.

## İmaməddin Muxtar oğlu Hümbətov

*(05.09.1998-19.10.2020)*

## Böyük Qələbənin həsrətində idi





Arzuları çox idi. Ancaq heç birinə çatmadı. Qonşuluqda heyva ağacı var idi. Bacımın qızı Məryəm gəlib ondan birini dərmişdi. Gəlib bunu görəndə çox hirsləndi və alıb tulladı. Xalası qızına acıqlandı ki, sən onun sahibindən halallıq almısanmı? Dedim ki, bala, halallıq veriblər. Başladı həmin adamın ailəsində kim varsa adlarını sadalamağa ki, onların hər birinin bu ağacda haqqı var. Bu cür halallığa baş əyən övlad idi.



Bir dəfə işdən evə gələndə atasına bir dəstə pul uzatdı. Atası dedi ki, pulum var. Qayıtdı ki, ata, götür. Bu, oğul qazancıdır. Sən demə, sonuncu qazancı imiş...

Xüsusi təyinatlı olduğu üçün işlə bağlı nə evdə, nə də kənar yerdə bir kəlmə danışmazdı.

Gedəndə arxasınca çıxdıq ki, yola salaq. Dedi ki, ana, xahiş edirəm, gəlməyin. Yoldaşlarım maşında gözləyir. İnşallah, tez qayıdacağam. Buradan son gedişində demişdi ki, ana, stol açarsan, ayın 10-u axşama gələcəyəm. Ayın 10-u idi. Zəng elədi ki, ana, süfrəni hazırla. Axşam yoldaşlarımla gəlirəm. Mən də gözəl bir süfrə hazırladım. Sübh oldu, baxdım ki, saat artıq, təqribən, 8-9 arasıdır. Bu an zəng gəldi. İmaməddin idi. Kefimi soruşdu. Soruşdum ki, bəs süfrə elə qurulu qaldı, niyə gəlmədiniz? Dedi ki, ana, boş ver süfrəni, gələcəyik sonra. Soruşdum ki, haradasınız? Qayıtdı ki, Bakıdayıq, kursa gəlmişik. Dedim ki, bəs yenicə gəlməmişdin kursdan? Dedi ki, ana, bu kursdan sonra vəzifəmizi artıracaqlar. Bir də bacısını soruşdu. Qayıtdı ki, ana, bacımı bir tək sənə əmanət edirəm, həmişə arxasınca get. Həm də ona qardaş ol. Qonşunun oğlu Fərman ilə hava limanında görüşmüşdülər. Deyir, dedim ki, sağ-salamat gələsiniz. Amma o əlini bir-birinə vurub gülümsədi, qayıtdı ki, bunlar qayıdıb gələcək, amma mən yox. Soruşdum ki, orada qalmaq fikrin var? Dedi ki, gələcəyəm, amma başqa cür. Ayın 7-si idi, baxdım ki, Fərman gəldi. Qayıtdı ki, Təranə xala, mənə demişdi ki, şəhid olacaq, elə bil, ürəyinə dammışdı...



## Elvin Mustafa oğlu Teymurov

*(20.05.1999-20.10.2020)*

## Vətəni müdafiə etmək qürurludur



Elvin orta məktəbi bitirdikdən sonra əsgərliyini də başa vurdu. Əsgərlikdən bir il sonra yenidən hərbiyə getdi. Komandirləri də onun oraya qayıtmasını istəyirdi. Mənə dedi ki, sənədlərimi hazırlayım verim. Ancaq mən istəmirdim. Dedi ki, qorxursan, mənə nə isə olar? Qorxma o yazı ki mənim alnıma necə yazılıb, elə də olacaq. Bu sözlərdən sonra baxdım ki, düz deyir. Cəmi 9 ay işlədi.

Bir gün axşam gəldi evə. Dedi ki, ana, ola bilsin, bizi müharibəyə aparsınlar. Bir gün sonra mənə zəng etdi. Müharibəyə getdiklərini bildirdi. Dedim, gəlim hava limanına görüm səni. Razı olmadı. Dedi, gəlmə, qoymayacaqlar. Bir də dedi ki, haqqını mənə halal elə. Gedəndən sonra bir dəfə danışdıq. Atışma səsləri gəlirdi. Dedi ki, ana, bizi müharibəyə aparmayıblar. Biz elə arxada gözləyirik. Daha ondan sonra danışa bilmədik. Bir gün axşam oturmuşduq. Fikirləşdim ki, yəqin, Elvinə nəsə olub. Yoxsa arabir zəng edərdi…

Həmin gün qardaşı dedi ki, bu gün işə getməyəcəm. Axşamçağı durub çölə çıxdı ki, gedim bir az gəzim. Mən də qardaşı ilə qapıya çıxdım. Gördüm ki, yoldan keçənlər mənə baxırlar. Zəng etdim qardaşıma. Dedim ki, Sabir, Elvinə nə isə olub? Dedi ki, yox. Dedim, bəs hamı mənə birtəhər baxır. Elvinə, deyəsən, nə isə olub. Üstündən bir az keçdi. Gördüm buradakı qardaşımgil gəldilər. Bildim ki, ağlayıblar, narahatdılar. Xəstə olduğum üçün mənə demirlər. Hərbi kommissarlıqdan demişdilər ki, biz aparıb bayraq sancmalıyıq qapıya. Onlar gələndə tamamilə anladım.



Bu gün hər birimiz onunla təsəlli tapırıq ki, torpaqlarımız alınıb. Soydaşlarımız öz yurd yerlərinə qayıdıblar. Ona görə də şəhidlərimiz heç vaxt yaddan çıxmayacaqlar. Ruhları şad olsun!

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı, I dərəcəli ədliyyə qulluqçusu İradə Quliyeva elektron qanunvericilik bazasının kompakt versiyası – e-qanun.az haqqında "Şərq qapısı" qəzetinə müsahibə verib.*

# Elektron qanunvericilik bazası hər kəs üçün əlçatandır

***– Uzun müddətdir ki, fəaliyyət göstərən e-qanun.az saytı hansı üstünlüklərinə görə fərqlənir?***



– Ötən dövrə nəzər salsaq, görərik ki, zamanla insan təfəkkürünə söykənən hər bir fəaliyyətin hüquqi çərçivəyə salınmasına həmişə ehtiyac olub. Belə ki, dünyada ilk qanunların qəbulundan başlayaraq hüquqi tənzimlənmə cəmiyyətin inkişafında özünəməxsus rol oynayıb. Azərbaycan Respublikasının qanunvericilik sisteminin əsasını təşkil edən Konstitusiyanın qəbulu, demək olar ki, cəmiyyət həyatında əsaslı dəyişikliklərə yol açdı və qanunvericilik sisteminin formalaşmasına mühüm təsir göstərdi. Aparılan genişmiqyaslı islahatlar ictimai münasibətlərin bütün sahələrini əhatə etməklə yeni mühüm qanunların, fərmanların, strategiyaların və digər hüquqi aktların qəbul olunması ilə müşayiət olunur. Əgər əvvəllər hər hansı bir sənədi əldə etmək vaxt aparırdısa "elektron hökumətin" yaradılması ilə bu problem öz həllini tapmış oldu. Beləliklə, bu texnoloji yeniliklərdən biri də normativ-hüquqi aktlar sahəsinə öz müsbət təsirini göstərən e-qanun.az saytıdır ki, bu da 2006-cı ilin mart ayında Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən hüquqi aktların vahid elektron bazası kimi istifadəyə verilib. Əsas məqsəd əhalini hüquqi aktlar barədə məlumatlandırmaq, onların mətni ilə rahat tanış olmaq, əldə etmək, eləcə də insanların hüquqi biliklərini artırmaqdır. Yarandığı vaxtdan etibarən ödənişsiz fəaliyyət göstərən saytı, demək olar ki, ölkə üzrə istifadəyə verilmiş ilk informativ elektron xidmətlərdən hesab etmək olar.

***– Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətlərindən biri də hüquqi aktların vahid elektron bazasının (e-qanun.az) formalaşdırılmasını və müvafiq internet informasiya ehtiyatı vasitəsilə ümumi istifadə üçün daim açıqlığını təmin etməkdən ibarətdir. Bu istiqamətdə hansı işlər görülüb?***

– Məlumat üçün bildirim ki, hələ 21 dekabr 2010-cu il tarixdə Azərbaycan Respublikasının "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanunu qəbul olunduqdan sonra onun tələblərinə uyğun olaraq 2011-ci ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantı *(huquqiaktlar.gov.az)* hazırlanaraq istifadəyə verildi. Hüquqi Aktların Dövlət Reyestrinin e-qanun.az saytından fərqi reyestrə daxil edilmiş hüquqi aktların mətnləri istinad üçün rəsmi mənbə hesab olunmasıdır. Hər iki elektron sistemin əhəmiyyəti nəzərə alınaraq ölkə Prezidenti tərəfindən təsdiq olunmuş Dövlət proqramlarında onların təkmilləşdirilməsi üzrə tapşırıqlar verilmişdir. Bu tapşırıqları rəhbər tutaraq "e-qanun.az" və Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının əsasında hər iki sistemi özündə birləşdirən hüquqi aktların vahid elekron bazasının daha təkmil versiyası hazırlanaraq 2021-ci ildə istifadəyə verilmişdir. Hazırda elektron bazada Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildikdən sonra, yəni 1991-ci ildən başlayaraq bu günə kimi qəbul edilmiş hüquqi aktları əldə etmək mümkündür.

Xatırladım ki, qeyd olunanlarla yanaşı, 19 iyul 2011-ci il tarixdə qəbul edilən "Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda əksini tapan müddəalardan biri də Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin yaradılması oldu. Beləliklə, Hüquqi Aktların Dövlət Reyestri 2012-ci il yanvarın 1-dən fəaliyyətə başladı. Hüquqi Aktların Dövlət Reyestri Naxçıvan Muxtar Respublikasında qəbul edilən normativ-hüquqi aktları, normativ xarakterli aktları, o cümlədən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarını, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamlarını, həmçinin onların rekvizitlərini əks etdirən dövlət informasiya ehtiyatıdır.

Dövrün tələblərinə uyğun olaraq 2023-cü ilin sentyabr ayında Azərbaycan Respublikasının Hüquqi aktların vahid elektron bazasının tərkib hissəsi kimi e-qanun.az saytında "Naxçıvan Muxtar Respublikasının hüquqi aktları" bölməsi yaradıldı. Beləliklə, Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestri həmin elektron bazaya (e-qanun.az saytına) inteqrasiya olundu. Ötən müddət ərzində yenidən formalaşdırılan elekron baza hazırda daha təkmil və çoxfunksiyalı versiyada fəaliyyət göstərməkdədir.

***– E-qanun.az saytından kimlər daha çox faydalanır?***

– Maraqlı bir məqama toxunduz. Bəzən elə düşünülür ki, e-qanun.az yalnız hüquqşünaslar üçün bir saytdır. Əslində, nəinki hüquqşünaslar, qeyri-peşə sahibləri, hər bir şəxs dünyanın istənilən nöqtəsindən, istənilən vaxt müxtəlif platformalar üzərindən sayta daxil olmaqla milli qanunvericiliyə dair hüquqi aktlarla tanış ola və əldə edə bilərlər. İstifadə qaydası ilə bağlı da qeyd edim ki, e-qanun.az saytı elektron qanunvericilik bazasının kompakt versiyasıdır və günün istənilən saatında məkana bağlı olmadan hüquqi aktlara çevik və daha rahat şəkildə əlçatanlığı təmin edir.

***– E-qanun.az saytında hansı funksiyalar mövcuddur?***

– Demək olar ki, sadə və asan formada idarə olunan e-qanun.az saytında bütün bölmələr və funksiyalar var. Çox funksiyallığı ilə fərqlənən sayt həm də geniş axtarış imkanlarına malikdir və bu da hüquqi aktların məzmunu ilə qısa bir müddətdə tanış olmağa, axtarış aparmağa imkan verir. Belə ki, hər bir kəs lazım olan hüquqi sənədi tapmaq üçün e-qanun.az saytına daxil olduqdan sonra "Axtarış" səhifəsində mövcud olan "Sözə görə" və "Tarix üzrə" xanalarından birinə daxil olmaqla axtarılan hüquqi aktın xanaya uyğun rekvizitini yazıb sənədi tapa bilər.

Bundan əlavə, "Axtarış" bölməsində normativ-hüquqi aktlar, normativ xarakterli aktlar və qeyri-normativ-hüquqi aktlar adlı üç yarımbölmə də mövcuddur ki, istifadəçilər axtardıqları hüquqi aktları növünə görə asanlıqla əldə edə bilərlər.

***– Hazırda hüquqi aktların elektron bazasına Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən nə qədər hüquqi akt daxil edilib?***

– Ümumilikdə, elektron bazada 58 minə yaxın hüquqi akt mövcudur ki, bunlardan da 6 mindən çoxu Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən qanunla müəyyən edilmiş struktura uyğun olaraq işlənilərək elektron bazaya daxil edilib. Mütəmadi olaraq da bu proses davam etməkdədir.

***– Vətəndaşların rahatlığını təmin etmək üçün bu sahədə hansı tətbiqlər həyata keçirilib?***

– Ümumiyyətlə, son illər istifadəyə verilmiş və vətəndaş məmnunluğu doğuran, ədliyyə və məhkəmə fəaliyyətinə əlçatanlığı təmin edən "Mobil notariat", "Mobil məhkəmə" tətbiqləri ilə yanaşı, qanunvericilik aktlarını dərhal əldə etməyə imkan verən mobil e-qanun tətbiqini də xüsusi qeyd etmək lazımdır. Bu mobil tətbiq normativ aktlara çevik və daha rahat şəkildə əlçatanlığı təmin edir. İstifadəsi çox asandır. Belə ki, istənilən yerdə, istənilən vaxt qanunvericilik aktının mətni ilə ani rejimdə tanış olmaq, əldə etmək mümkündür. Bu tətbiq telefona asanlıqla yüklənir, heç bir qeydiyyat tələb olunmadan yükləyib ondan yararlanmaq olar.

***– Ədliyyə Nazirliyi e-qanun.az saytının fəaliyyətinin aktiv şəkildə aparılması üçün hansı işləri görür?***

– Məlumdur ki, Ədliyyə Nazirliyi qanunvericilik bazasının təkmilləşdirilməsi prosesində daim iştirak edir və əhalinin hüquqi biliklərinin artırılması və qanunvericilikdəki yeniliklərlə bağlı məlumatlılığın təmin olunması məqsədilə sizin də qeyd etdiyiniz kimi, Hüquqi aktların vahid elektron bazasını (e-qanun.az) aktiv şəkildə aparır. On minlərlə normativ sənədi ehtiva edən e-qanun.az elektron resursu, demək olar ki, interaktiv rejimdə fəaliyyət göstərir və daim yenilənir. Daxil edilən sənədlərin mətnləri ilə tanış olmaq üçün hər il bu sayta istifadəçilər tərəfindən minlərlə giriş və baxış həyata keçirilir ki, bu da ildən-ilə artmaqdadır. Buna görə də Ədliyyə Nazirliyi tərəfindən ictimaiyyət üçün daim açıqlığı təmin edilən bu elektron resursdan hər kəs rahatlıqla bəhrələnə bilər.

**Nərmin MUSAYEVA**

# Ordubadlı məşhur Ərbab kimdir?



Qədim yurd yerimiz olan Ordubad özünün zəngin təbiəti, tarixi abidələri, görkəmli elm, sənət xadimləri ilə yanaşı, həm də xeyirxah əməlləri ilə tanınan insanları ilə şöhrət tapıb. Onlardan biri də "Ərbab" adlı şəxs olub ki, bu gün də onun adı ordubadlılar tərəfindən ehtiramla xatırlanır. Bu günlərdə Ordubadda olarkən həmin şəxsin kimliyi, göstərdiyi xeyirxah əməlləri ilə maraqlandıq.

Bu gün Ordubad şəhərinin mərkəzində ikimərtəbəli köhnə bina həmin o zəhmətsevər insanın, Ordubadın varlı təbəqəsindən olan Ərbabın iş yeridir. Hazırda bu bina fəaliyyəti üçün yararsız halda olmasına baxmayaraq, Ordubada üz tutan qonaqların marağını özünə çəkir. Bir vaxtlar bu köhnə iş yeri Ordubad şəhərində ilk baramaqurdan (ipək) fabriki kimi 1865-ci ildə fəaliyyətə başlayıb. Bu gün ordubadlıların hörmətlə Ərbab kimi adını çəkdiyi Rzaqulu Rzayev həmin fabrikin qurucusu olmuşdur. Rzaqulu Rzayev işgüzarlığı və xeyirxahlığı ilə Ordubadda hər zaman nümunəvi şəxslərindən biri kimi xatırlanır. Bu şəxsin işçilərinə qarşı çox diqqətcil və bununla yanaşı, tələbkar olduğunu bildirirlər.

Fabrik yaradılarkən buraya 96 çeşiddə 24 ədəd dəzgah gətirilib. Həmin dövr üçün çox sərfəli və iqtisadi cəhətdən səmərəli sayılan baramaçılıq inkişaf etdirilməyə başlayıb. Ərbab buraya çoxlu işçi qüvvəsi cəlb edib. Onun bu xeyirxah əməli sayəsində qədim baramaçılıq ənənələri yenidən yaşadılmağa başlayır. Baramaçılığın inkişaf prosesində digər təbii amillərlə yanaşı, zəhmətsevər ordubadlıların tarixən qazanmış olduğu təcrübə də mühüm rol oynamışdır.

Ərbab haqqında məlumat əldə edərkən onun yaşadığı evin ünvanını öyrəndik. Bu ev Ordubad şəhərinin Varsan məhəlləsində yerləşir. Əldə etdiyimiz məlumata əsasən onu da deyə bilərik ki, Ərbab uzun illər bu evdə yaşamış, daha sonra o, Gəncə şəhərinə köçmüş və orada da vəfat etmişdir. Məzarı da Gəncə şəhərindədir.

Bu gün Ordubad Tarix-Diyarşünaslıq Muzeyində Ərbaba aid "Zınqırovlu sandıq" saxlanılır ki, o, qiymətli əşyaları saxlamaq üçün sandığı İsveçrədən gətirdibmiş. Yanmayan dəmirdən hazırlanan sandığın içərisində kiçik bir seyf də var ki, ümumi çəkisi 347 kiloqramdır. Sandığın diqqətçəkən xüsusiyyətlərindən biri də onun 1 açarla və 18 dillə bağlanmasıdır. Muzeydə Ərbaba aid digər eksponat isə Fransadan gətirtdiyi iri kəfkirli saatdır. Bu saat da onun şəxsi istifadəsində olub. Burada saatın zəngi fasilə vaxtını bildirirmiş. Deyilənə görə, Cümə məscidinin üzərinə quraşdırılmış həmin saatın zəngi hər dəfə vurulanda, hətta onun səsi İranın Ordubada yaxın olan kəndlərinə qədər gedib çıxarmış.

Məlumdur ki, ölkə başçısı Prezident cənab İlham Əliyev 2024-cü il 21 fevral tarixdə "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Sərəncam imzalayıb. Bu Sərəncama əsasən rayon ərazisində bir sıra mühüm işlər həyata keçirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq olunmuş siyahıya əsasən Ordubad şəhəri ərazisində, təxminən, 200-dən çox daşınmaz tarix-mədəniyyət abidəsi var. Həmin qoruq ərazisində olan abidələrin mövcud vəziyyətinin müəyyən edilməsi ilə bağlı işlərə başlanılıb. Ordubad şəhərində yerləşən "Ərbabın iş yeri" və ona bitişik binanın bərpasının layihələndirilməsi istiqamətində satınalma yekunlaşdırılıb, eskiz layihələri hazırlanır. Qoruq ərazisində olan bir neçə memarlıq abidəsinin bərpa layihəsinin hazırlanması istiqamətində satınalmanın həyata keçirilməsi üçün tədbirlər görülür. Görülən işlər qədirbilən ordubadlılar tərəfindən minnətdarlıqla qarşılanır. Çünki bu, xeyirxah bir insanın xatirəsinə göstərilən xeyirxah işdir.



**Aidə İBRAHİMOVA**





# Yeni dövrdə turizmin inkişafı üçün qarşıya ciddi vəzifələr qoyulub



Müasir cəmiyyət həyatında yerinə yetirdiyi funksiyalarla turizm regional inkişafın vacib mexanizmi və sosial-mədəni həyatın mühüm tərkib hissələrindən biridir. Rekreasiya və yaradıcı əmək fəaliyyəti bir-biri ilə sıx bağlı olduğundan turizmin inkişafından dövlətin gözlədiyi nəticələr arasında asudə vaxtın səmərəli keçirilməsi, insanların fiziki və mənəvi sağlamlığı və turizm destinasiyası timsalında ölkənin beynəlxalq aləmdə tanıdılması kimi mühüm hədəflər vardır. Odur ki, hazırkı dövrdə ölkəmizdə, eləcə də onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında dövlətimiz tərəfindən müəyyən olunmuş prioritet inkişaf istiqamətləri arasında turizmin yer tutması təsadüfi olmayıb, bu sahənin yeni dövrün tələbləri arasındakı mövqeyi ilə izah edilir.

Hazırkı isti yay fəslində əhalinin, xüsusən də balacaların istirahət günlərində müxtəlif istiqamətlərə üz tutanların sayı daha çox olur. Eləcə də turizm sahəsində iş görənlər də bu mövsümdə daha çox komfortlu xidmət sata bilmək üçün müxtəlif biznes ideyaları üzərində çalışmaqla bu geniş imkanlı sektorda öz yerlərini tutmağa çalışırlar. Naxçıvanın davam edən mövcud blokada vəziyyətində turizmə verilən diqqət isə, hər şeydən əvvəl, buradakı zəngin turizm ehtiyatlarına, bölgənin əlverişli tranzit mövqeyinə, ümumi turizm infrastrukturunun vəziyyətinə və yerli əhalinin yüksək qonaqpərvərliyinə əsaslanır. Buna görə də, xüsusən son illərdə Naxçıvanda yaranmış sərbəst iqtisadi fəallıq mühitində turizmin inkişafından danışdıqda əhalinin çoxdan arzuladığı komfortlu sosial-mədəni xidmətlərə çıxışının asanlaşması, xüsusən ucqar dağlıq ərazilərdə həm turistlərin, həm də yerli əhalinin istifadə edə biləcəyi rekreasiya, istirahət, əyləncə və tanışlıq məzmunlu servislərin sayının və çeşidinin çoxaldılması problemləri yada düşür. Ayrıca olaraq, turizmin çoxşaxəli fəaliyyət növü olması, burada turistlərin maraqlarının dövlət, region, yerli icma, bələdiyyə və özəl sektor mənafeləri ilə düzgün əlaqələndirilməsi, habelə ekoloji tələblərə əməl edilməsi və sahədə dayanıqlığa nail olunması kimi ciddi problemlər turizmin inkişafında qarşıya qoyulmuş vəzifələrdəndir. Bütün bunlar və digər mühüm məsələlərin əhəmiyyətini və həlli yollarını isə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda görmək mümkündür.

Naxçıvanın istər təbii, istərsə də tarixi-mədəni turizm ehtiyatları sarıdan kifayət qədər zəngin resursları vardır. Bunları bitkin turizm potensialı şəklində son məhsula çevirib turistlərə təklif edə bilmək üçün yeni layihələr həyata keçirilməsi, xarici təcrübənin öyrənilməsi günün aktual məsələlərindəndir. Turizm canlı xidmətlərə və qonaqpərvərlik elementlərinə həssas olduğundan gələcəkdə bura süni intellektin tətbiq ehtimalı da zəif, dolayısı ilə yeni startaplara da geniş meydan aça bilən sahədir. Ayrıca olaraq turistlərin tipologiyası və ölkə mənşəyi kimi mühüm amillər burada yaradıcı təşəbbüsləri, hər cür yenilikci ideyaları irəli aparmaqla sahəni cazibədar hala gətirir. Məhz buna görə də ölkəmizdə turizm işinin təşkili və digər ixtisaslar üzrə müxtəlif ali təhsil müəssisələrində, o cümlədən Naxçıvan Dövlət Universitetində kadr hazırlığının aparılması bu sahənin inkişafında mütəxəssis hazırlığı qarşısında qoyulmuş vəzifələrin əhəmiyyətindən xəbər verir. Gələcəkdə Naxçıvanda yaradılacaq turizm-rekreasiya zonaları üzrə planlaşdırma və idarəetmə məsələlərinin həllində ixtisaslı kadrların gücündən istifadə turizmdən arzuedilən nəticələrin əldə olunmasında mühüm şərt kimi dövlətimiz tərəfindən irəli sürülməkdədir. Turizmin idarəolunmasının bu sahə üzrə ali təhsil almış gənclərə həvalə olunması burada təşəbbüskarlığı və tələbkarlığı müəyyən edən şərtlərdəndir. Bu məqamda, işğaldan azad olunmuş ərazilərimizdə də turizmin prioritet sahələrdən biri olduğunu qeyd edərək Qarabağ Universitetində Turizm işinin təşkili ixtisası üzrə bu il 120 dövlət sifarişi yeri olduğunu da misal çəkmək yerinə düşər.

Naxçıvan Muxtar Respublikasında yeni iş yerlərinin yaradılması və iqtisadi fəallığın artırılması istiqamətində qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün turizmə verilən diqqət, ümumilikdə, bu sahədən gözlənilən nəticələrin əhəmiyyəti ilə görmək mümkündür. Əhalinin asudə vaxtının səmərəli təşkili bu gün sosial həyatın mühüm məsələlərindən biri olduğundan burada qarşıya qoyulan əsas vəzifə bütün əhali təbəqələrinin, xüsusən gənclərin bu istiqamətdə olan tələbatlarının ödənilməsində turizmin aparıcı rolundan maksimum istifadə edilməsi ilə əlaqədardır. Turizm iqtisadi fəallığın artırılmasında və sosial həyatın canlandırılmasında mühüm funksional gücə malik olduğundan onun bir prioritet sahə kimi Naxçıvanın inkişafı ilə bağlı Dövlət Proqramında yer alması da təsadüfi deyildir. Regiondakı iqtisadi fəallıq, son nəticədə, özünü xidmətlərin əlçatanlığında, çeşidi və keyfiyyətində təzahür edərək əhalinin daimi məşğulluğu və məskunlaşmasında özünü göstərir.

Hazırda regionumuzda turizmin inkişafı məqsədilə qarşıda Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planının hazırlanması və müvafiq qiymətləndirmənin aparılması və yekunda turizm klasterlərinin formalaşdırılması kimi vəzifələr dayanır. Hesab olunur ki, muxtar respublika ərazisində müəyyən coğrafi ərazidə cəmlənmiş, birbaşa və ya dolayı yollarla turizmə cəlb olunmuş resurslar və məkanlar, biznes təyinatlı və digər müxtəlif müəssisələr turizm klasterləri formalaşdırmaqla turizmin inkişafı üzrə mövcud dünya təcrübəsinin tətbiqinə imkanlar yaradacaqdır. Turizm üzrə ekspertlərin yekun rəyləri əsasında Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən Naxçıvan iqtisadi rayonu üzrə turizm inkişaf planının hazırlanmasında istifadə olunacaq xəritələrin hazırlanması məqsədilə turizm potensialı yüksək olan tarixi abidələrin və mehmanxanaların yerləri müəyyənləşdirilmişdir. Xəritə üzərində qeyd olunmuş turizm resursları və cəlbedici turizm obyektləri muxtar respublikanın turizm potensialını vizual olaraq vahid xəritə üzərində toplamaqla turizm klasterlərinin təkmilləşdirilməsi və turizm rekreasiya zonalarının yaradılması zamanı qərarvermə proseslərində istifadə olunacaqdır. Bütün bunlar isə çox vacibdir. Belə ki, təxminən, 15-20 il əvvəl Naxçıvanda yeni fəaliyyətə başlayan turizm şirkətləri bölgənin turizm marşrutları və yaxud turistlərə təklif olunacaq tur zərflərin tərkibindəki yemək menyusu üzərində düşündükləri halda artıq muxtar respublikada rekreasiya zonalarının xəritələnməsi müzakirələri aparılmaqdadır.

Bu gün dünyanın gözü Azərbaycanda, onun qardaş Türkiyəyə, oradan da Avropaya açılan qapısı Naxçıvandadır. Əminliklə demək mümkündür ki, yaxın gələcəkdə ölkəmizin əsas hissəsi ilə kommunikasiyaların tam bərpa olunmasından sonra Naxçıvana da gediş-gəlişi dəfələrlə asanlaşacağından bu gün həyata keçirilən planlaşma işlərinin əhəmiyyəti bir daha görünəcəkdir. Hazırda isə görünən odur ki, artıq qarşıdan daha qaynar payız turizm mövsümü gəlir və bu mövsümdə turistləri qarşılamaq üçün hazır olmalıyıq.

✍ **Əli CABBAROV**



## Türkiyəli və azərbaycanlı şəhid ailə üzvləri Ordubadda olub







Avqustun 21-24-də "YAŞAT" Fondunun təşkilatçılığı, Azərbaycanın milli daşıyıcısı "Azərbaycan Hava Yolları"nın, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin, Türkiyə Respublikasının Gənclər və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının tərəfdaşlığı, "Nar"ın sponsorluğu ilə Naxçıvanda "Yay düşərgə"si keçirilib.

Avqustun 24-də Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli düşərgədə iştirak edən Azərbaycan və Türkiyədən olan şəhid övladları ilə görüşüb. Dübəndi İstirahət Mərkəzində təşkil olunan çay süfrəsi arxasında icra başçısı şəhid övladları ilə səmimi söhbət edib, qəhrəman Vətən oğullarının keçdiyi döyüş yolundan danışıb.

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinə gələn düşərgə iştirakçılarına bildirilib ki, muzey XVII əsr abidəsi olan Qeysəriyyə binasında yerləşir. Qeysəriyyə dünyadakı nadir abidələrdən biridir. Belə tikililərə dünyanın 3 yerində – Səmərqənd, Təbriz və Ordubad şəhərlərində rast gəlinir. Qeyd edilib ki, muzeyin fondunda 3700 eksponat toplanıb ki, onun da 1100-ü ekspozisiyada nümayiş olunur.

Akademik Yusif Məmmədəliyevin ev-muzeyi ilə tanışlıq şəhid övladlarında böyük maraq doğurub. Bildirilib ki, alimin ev-muzeyi 1975-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci il 28 fevral tarixli Sərəncamına əsasən ölkəmizdə Yusif Məmmədəliyevin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunub, görkəmli alimin Ordubaddakı ev-muzeyində yenidənqurma işləri aparılıb. Burada akademikin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid sənədlər, çap olunmuş əsərləri, fotoşəkillər, habelə xatirə şəkillərindən ibarət 2000-dən artıq eksponat saxlanılır. Vurğulanıb ki, Azərbaycanın kimyaçı alimi Yusif Məmmədəliyevin fundamental ixtirası ilə yüksəkoktanlı aviasiya benzinin istehsalına nail olunub ki, bu da II Dünya müharibəsində qələbənin qazanılması üçün həlledici rol oynayıb.

Ordubad rayonunun qədim Sərşəhər məhəlləsini gəzən "Yay düşərgəsi"nin iştirakçılarına buradakı çinar, bulaq, məscid və adət-ənənələr barədə məlumat verilib. Qeyd olunub ki, Sərşəhər məscidi XVIII əsrə aiddir. Məscid Nazirlər Kabinetinin 2001-ci 2 avqust tarixli Qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb və yaxın gələcəkdə tarix-memarlıq abidəsi bərpa ediləcək.

Naxçıvanı ölkənin digər bölgəsiylə birləşdirən Zəngəzur dəhlizinin əsas giriş nöqtələrindən sayılan Ordubad rayonunun Kotam kəndi ərazisinə gedən şəhid övladlarına rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli qazanılan tarixi zəfərdən, ərazi bütövlüyümüz və suverenliyimizin tam bərpasından sonra regionda yaranan yeni reallıqlar barədə məlumat verib.

Sonra şəhid övladları Ordubad rayonunun Dizə kəndində fəaliyyət göstərən "Su səsi" Ailəvi İstirahət Mərkəzində nahar edib, mənalı istirahət vaxtı keçiriblər.

Qeyd edək ki, avqustun 24-də "Yay düşərgəsi"nin iştirakçıları Əlincəqala tarixi abidəsi və "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyini də ziyarət ediblər.

# Bura Naxçıvandır



Gəlin dünyanın dörd bir yanından Naxçıvana üz tutan qonaqlardan xəbər alın bu diyarı. Xəbər alın görkəmində kişi yaraşığı olan dağları, xanım gözəlliyi, gənc qız işvənazı olan çölləri, düzləri. Xəbər alın əziz naxçıvanlıların qonağa xüsusi ehtiramını, hörmətini, "qonaq Tanrı nemətidir", – deyən ordubadlıların gülərüzlülüyünü, mehribanlığını. Bir süfrə başında əyləşib Ordubadın qayğanağından, qaysavasından, yeyənlərin damağında dad buraxan sucuğundan, limonundan danışın. Danışın yeddi rayonunda yeddi gözəlin gözəlliyini daşıyan kəndlərindən, qəsəbələrindən, xan Araz boyunca uzanan Culfanın qəhrəmanlıq salnaməsi hesab edilən Yaycısından, ziyalılar yurdu kimi tanınan Ordubadın Dəstəsindən, Mirzə Cəlilin "sahibi-mənsəb və ziyalılar vətəni" adlandırdığı Şahtaxtı kəndindən. Danışın günü-gündən müasirləşən, inkişaf edən Sədərəyin illərlə düşmənlə üz-üzə apardığı qəhrəmanlıq mübarizəsindən, bu yurdun şəhidlərinin igidliyindən, şücaətindən. Söhbət açın tarixin bütün qovğalarında başı bəlalar çəkən, parçalanan, çapılıb-talanan, müstəqilliyinə kölgə salınan bu yurdun bitib-tükənməyən sərgüzəştlərindən. Gümüşgölün əfsanəsindən, "Badamlı"nın, "Sirab"ın canlara məlhəm, xəstələrə sonsuz şəfa verən büllur kimi saf və təmiz suyundan ürəkdolusu danışın. Danışın Andranikin qoşunlarına qan udduran, şəhidlər verən, lakin ana torpaqdan düşmənə pay etməyən zəhmətsevər nehrəmlilərin Vətənə sədaqətindən…

Bura Naxçıvandır; milli rəqslərimizi, folklor nümunələrimizi, yallılarımızı qoruyub saxlayan, yaşadan, "Şərur" yallısı ilə dünyada tanınan qədim yurd yerimiz. Bu el, bu oba min illər boyu əl-ələ, baş-başa çalışıb, vuruşub Vətən yaradanların, birliyimizi, bərabərliyimizi təmsil edənlərin, bayrağımızı daim ucalarda dalğalandıran oğulların, qızların məmləkətidir. Müasir tarixinin hər sətrində Ulu Öndər dühasından bəhrələnib, böyük məktəb yaratmışların, o məktəbdə dostlara arxa-dayaq, ümid yeri verən neçə-neçə ziya sahiblərinin doğulduğu torpaqdır. Bura gecələri büllur kimi saf xan Araza baxan, yüksək dağlıq ərazidə qərar tutmuş beşminillik şəhər mədəniyyətinin qovşağı,









Böyük İpək Yolunun üzərində dayanan mədəniyyət beşiyidir. Bura qədim Naxçıvandır – Azərbaycanın göz bəbəyi, Şərqin intibah ocağı, Turan – türk qardaşlığının üzünə açılan əbədi dostluq, qardaşlıq qapısıdır.

Bura Naxçıvandır; Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu yurd yerimiz artıq bir əsrdir ki, doğma Vətəndən cismani surətdə ayrı salınıb, ərazi bütövlüyü digər ata-baba torpaqlarımızda olduğu kimi, kobudcasına pozulub. Sirli-sehrli naxışlar səltənəti artıq bir əsrdir ki, muxtariyyət şəraitində yaşamağa məcbur edilib. Ancaq siz bu diyarı gəzib-dolaşsanız, ona təmizürəkli dost kimi yanaşsanız, görəcəksiniz ki, blokada şəraitində keçən illər yalnız onu cismani surətdə Azərbaycandan ayırıb. Həqiqət isə belədir ki, bu diyarın hər daşında, qayasında, bir ovuc torpağında, bir içim suyunda o taylı, bu taylı bütöv Vətənin – Azərbaycanın isti nəfəsi duyulur. Doğma naxçıvanlıların hər biri – yaşlıdan cavana, uşaqdan-böyüyə hər bir sakini böyük ümidlərlə yaşayır, bu inamla qurub-yaradır, düşmənin bir addımlığında dayansa da, əmin-amanlıqla yurduna, yuvasına, elinə, obasına sahib çıxır. Qədim diyarın sakinləri ana torpağın onlara verdiyini canları, qanları bahasına qoruyub yaşadır və bundan sonra da yaşadacaqlar. Çünki bura Naxçıvandır – dünyanın düz bucağı…



✍ **Məcid RƏŞADƏTOĞLU**

## Gimnastlar şəhəri rəngli görüntülərlə bəzəməyə davam edir



Naxçıvan şəhərində "İdman hamı üçün" layihəsi çərçivəsində açıq gimnastika məşğələləri davam etdirilir. Bir neçə həftəlik ardıcıl periodun davamında gimnastlar bu dəfə "Cahan" AVM-ə aid istirahət parkında bacarıqlarını nümayiş etdiriblər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin adıçəkilən layihəsi çərçivəsində təşkil olunan açıq məşğələdə 40-dan çox uşaq iştirak edib. Onlara bədii gimnastika və "Gimnastika hamı üçün" üzrə muxtar respublika yığma komandasının baş məşqçisi, idman ustası Humay Qafarova tərəfindən ustad dərsi keçilib, məşq prosesi icra olunub.

Bu tip tədbirlərin əsas hədəfi əhalini sağlam həyat tərzinə təşviq etmək, asudə vaxtlarının maraqlı və əyləncəli keçməsinə zəmin yaratmaqdır. İnsanlar üçün əyləncə, sağlam həyat tərzi və dostluq fəlsəfəsinin təcəssümü olan "Gimnastika hamı üçün" ilə yaşından, görünüşündən və fiziki qabiliyyətindən asılı olmayaraq, hər bir şəxs məşğul ola bilər.

Qeyd edək ki, hər kəsin qoşula biləcəyi bu məşğələlər hava şəraitindən asılı olaraq hər həftənin şənbə günü (saat 19:00-da) şəhərin müxtəlif istirahət parklarında davam etdiriləcəkdir.

## Kikboksçular da "İdman hamı üçün" deyir



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı, Naxçıvan Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə "İdman hamı üçün" layihəsi çərçivəsində növbəti açıq məşğələ reallaşıb. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin adıçəkilən layihəsi çərçivəsində təşkil olunan idman tədbiri "Ləvənt" Döyüş Klubunun məşqçi və idmançılarının iştirakı ilə keçirilib.

100-ə yaxın qız və oğlan kikboksçu layihənin əsas məqsədinə uyğun olaraq öz bacarıqları, istedadları ilə insanlara idmanı sevdirməyə, cəmiyyətdə bu sahəyə olan marağı artırmağa çalışıblar. İdmançılar müəyyən sektorlarda əyləncəli, taktiki və texniki məşq elementləri icra edib, döyüş səhnələri canlandırıblar.

Tədbirin yekununda klubun təsisçisi Etibar Qəribov idmana göstərilən diqqətə görə təşəkkür edib, minnətdarlıq əlaməti olaraq təşkilatçı qurumlara təşəkkürnamələr təqdim edib.

## Karateçimiz beynəlxalq turnirin mükafatçısı olub




Türkiyənin paytaxtı İstanbul şəhərində "Uluslararası Marmara Cup Karate Şampiyonası" beynəlxalq karate turniri keçirilib. Beylikdüzü İdman Kompleksində reallaşan yarışda Azərbaycan idmançıları da medallar uğrunda mübarizə aparıb.

Naxçıvan karateçisi Xədicə Bayramova 10 yaşlı qızlar arasında kumite yarışında iştirak edib və 30 kiloqram çəki dərəcəsində bürünc medala layiq görülüb.

Məlumat üçün bildirək ki, gələcəyinə böyük ümidlər bəslənilən Xədicə bu il Bolqarıstanın Albena şəhərində keçirilən XIV Dünya Şotokan Çempionatının, eləcə də müxtəlif vaxtlarda "Open Georgia", "International Batumi Open", "Arpachay Open", "Olimpiya Ümidləri" beynəlxalq turnirlərinin qalibi olub.

### Bildiriş

"Mənzər" firması (VÖEN-0200105481) fəaliyyətini dayandırdığından ləğv olunur.

### İtmişdir

Şərur şəhəri, kapitan Seyidov küçəsi 3 ünvanında yaşamış Babayev Səttar K.Baba oğluna məxsus qeyri-yaşayış sahəsinin 102011000039-05101-083001 reyestr nömrəli texniki pasport və MH-0025351 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Hüseynov Zaur Əli oğlunun adına olan 102013004511 reyestr nömrəli plan və ölçü itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu, Bənəniyar kənd sakini Nuri Bəhruz Mayis oğlunun adına olan evin 3133 inventar nömrəli texniki pasportu və 0015586 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürkənd sakini İsmayılov Bahəddin Lətif oğlunun adına olan JN-021A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Qahab kəndində yaşamış Fətəliyev Hüseyn Abazər oğluna məxsus olan JN-165A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Hacıniyyət kəndində Nəcəfov Eyvaz Adil oğlunun adına olan JN-0068 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şəkərabad kəndində Əliyev Əbdüləli Heydərəli oğlunun adına olan AA-006475 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü, 103013004436 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini Abbasov Tapdıq Abdulla oğlunun adına olan JN-0044 nömrəli, 10705018 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Biləv kənd sakini Seyidov Saleh Mirmöhsün oğlunun adına olan JN-0047 nömrəli, 10705018 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Yuxarı Əylis kənd sakini Nəcəfov Əyyub Rəhim oğlunun adına olan JN-479 nömrəli, 10704005 kodlu dövlət aktı və JN-1179B nömrəli, 10704018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Xətai kənd sakini Babayev Əli İsa oğlunun adına verilmiş JN-45 nömrəli torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

"Mənzər" firması (VÖEN-0200105481) hüquqi sənədləri (nizamnamə, reyestrdən çıxarış VÖEN şəhadətnaməsi və möhürü) itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Həsən Əliyev küçəsi 2 ünvanında Allahverdiyev Vəfa Biniyət oğlunun adına olan 12.09.1996-cı il tarixli 58 qeydiyyat nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 020065441
Çapa imzalanmışdır 00:00
Nömrəyə məsul: Gülcamal Tahirova
Bülbül Quliyeva
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 260